RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 21 (8900) BAZAR, 30 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az







# Qarabağın quruculuğunda sürətli mərhələ başlayır

## İşğaldan azad edilmiş ərazilərimizdə aparılan kompleks bərpa işləri Prezident İlham Əliyevin qətiyyətinin və iradəsinin təcəssümüdür

**Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında həyata keçirdiyi cinayətlər və onların miqyası heyrət doğurmaya bilmir. Düşmən xalqımızın mədəniyyətinə, irsinə, respublikamızın təbiətinə qarşı tarixdə görünməmiş vandallıq törədib. Bütün bunlar sivil dünyamızda ermənilərin timsalında barbarlığın şüuruna hakim kəsildiyi bir toplumun hələ də qaldığını göstərir.**

### Qısa dövrdə görülən böyük işlər olduqca heyrətamizdir

Azərbaycan güclü dövlətdir və düşmənin onilliklər ərzində dövlətimizə, xalqımıza vurduğu maddi yaraların hamısı əlbəttə ki, sağalacaq. Vətən müharibəsinin başa çatmasından ötən qısa müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidr. Qısa müddətdə nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümüdür.

İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başlanmışdı. Düşməndən azad edilən Suqovuşana və Talışa gedən yolun çəkilişinə start veriləndə hələ hərbi əməliyyatlar davam edirdi. Torpaqlarımızın geri alınmasından sonra dərhal müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsinə başlanıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edilmiş ərazilərə ilk səfəri "Zəfər yolu"nun təməlinin qoyulması ilə yadda qaldı. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri işğaldan azad olunmuş ərazilərimizin sürətlə bərpa olunduğunu bütün dünyaya nümayiş etdirdi.

*Ardı 2-ci səh.*

# Azərbaycan sülhə hazırdır

## İndi Ermənistan düzgün seçim etməlidir

**Azərbaycan Prezidenti İlham Əliyevin KİV-ə vaxtaşırı müsahibə verməsi müxtəlif aspektlərdən yanaşdıqda olduqca maraqlıdır. Həmin müsahibələrdə istər dövlətimizin beynəlxalq mövqeyi, istərsə də ölkəmizin sosial-iqtisadi həyatındakı yeniliklər faktlarla öz əksini tapır.**

Dövlət başçısının yanvarın 12-də yerli televiziya kanallarına verdiyi növbəti müsahibə də diqqətçəkəndir. Jurnalistlərin suallarına dövlət başçısının məntiqli cavabları dünya düzənində Azərbaycanın yerini, mövqeyini, 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbəni şərtləndirən amillər, Ermənistanın dəyişkən siyasətinə münasibət, işğaldan azad edilmiş ərazilərdə başlayan bərpa, quruculuq işlərinə və s. məsələlərə aydınlıq gətirdi.

Müsahibədə diqqətçəkən məqamlardan biri hərbi quruculuq və vətənpərvərlik məsələləri idi ki, bu da dövlət başçısının 18 illik prezidentliyi dövründə daim gündəlikdə əsas yerdə dayanıb. Bu məsələ bütünlüklə xalqımızı birləşdirirdi. Bunun da müqabilində ölkə vətəndaşları, xüsusən də gənclərimiz Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etmək üçün eyni mövqedə dayandı və məqsədə nail oldu.

Təsadüfi deyil ki, dövlət büdcəsi nəzərdən keçirilən və hazırlanan zaman ən böyük xərclər hərbi quruculuq üçün ayrılırdı. Hərbi-quruculuq işlərinin mütləq şəkildə bundan sonra da davam etdirilməsinin vacibliyi adıçəkilən müsahibədə zəruri məqamlar kimi diqqət mərkəzində saxlanıldı. Dövlət başçısı vurğuladı ki, bu məsələ hələ də aktuallığı ilə seçilir. Əsasən də ona görə ki, Ermənistanda həm iqtidarda, həm müxalifətdə, həm də cəmiyyətdə güclü revanşist əhvali-ruhiyyə var.

*Ardı 2-ci səh.*

# Zəngəzur dəhlizi - Azərbaycan Avropa ilə Asiyanı birləşdirir

**İstənilən xalq və onun yaratdığı dövlət siyasi, iqtisadi və digər cəhətlərdən nə qədər möhkəm, qüdrətli olarsa, onun həyata keçirdiyi siyasətin müstəqillik elementləri də o dərəcədə güclü olar.**



## İlham Əliyevin qətiyyətli iradəsi ilə reallaşmaqda olan bu tarixi layihə bölgədə sülhün, strateji və iqtisadi əməkdaşlığın inkişafının təminatçısı olacaq

Bu gün Azərbaycan müharibədən sonra yaranmış yeni reallıqlara uyğun addım atmaqla dünyaya gücünü, qüdrətini, nəyə qadir olduğunu nümayiş etdirir.

### Azərbaycan bütün öhdəliklərə sadiqdir

Bu gün Qarabağda böyük tikinti bumu yaşanır. Ən prioritet məsələlərdən biri də Zəngəzur dəhlizinin açılması isitqamətində görülən işlərdir.

Əvvəlcə onu vurğulayaq ki, Azərbaycan bu dəhliz üzərindəki hava xəttindən demək olar ki, çoxdan istifadə edir. İndi əsas məsələ quru yolların - dəmir yolu xətti və avtomobil yolunun istifadəyə verilməsidir. Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə bu məsələyə xüsusi olaraq toxunmuşdu. Dövlət başçısı vurğulamışdı ki, Azərbaycan adıçəkilən hava məkanından istifadə üçün Ermənistandan icazə almayıb: "Hava məkanından istifadə etmək məsələsinə gəldikdə onu da bildirməliyəm ki, biz bu dəhlizdən Ermənistandan icazə almadan istifadə etdik. Bunu hər kəs bilsin, biz onlardan icazə almamışıq. Bu, bizim hüququmuzdur, bu, beynəlxalq dəhlizdir. Dünya aviasiya sistemində qaydalar var, yəni mövcud olan dəhlizdən istifadə etmək olar. Biz qərara gəldik ki, bundan da istifadə edək, Zəngəzur dəhlizinin hava versiyasını həyata keçirərək. Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma əsas məsələ, əlbəttə ki, bu deyil. Əsas məsələ artıq bu dəhlizi açmaq idi".

Prezidentin söylədiyi kimi, indi səylər dəhlizin quru yollarının açılışına istiqamətlənib. Ötən il fevralın 14-də İlham Əliyev Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşması nəzərdə tutulan layihələrdən birinin - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin təməlini qoyaraq Azərbaycanın 10 noyabr bəyanatının müddəalarına sadiqliyini bir daha göstərdi. İki il öncə hərbi əməliyyatların dayandırılmasının elan edilməsi ilə bağlı Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi tərəfindən imzalanmış bəyanatın 9-cu bəndində deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin, Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir".

*Ardı 2-ci səh.*

# "Hər bir dərdin dərmanı"

## İndi Lənkəran çayı təkcə bu bölgənin yox, bütün Azərbaycanın brend məhsuludur

Prezident İlham Əliyev 2004-cü il fevral ayının 11-də Regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramı haqqında fərman imzaladı. Bununla ölkənin hər yerində olduğu kimi, Lənkəranda da dirçəliş dövrü başladı. Neftdən gələn gəlirlərin müəyyən hissəsi kənd təsərrüfatının inkişafına yönəldildi. Regionlarda "Aqrolizinq" və "Aqroservis"lər yaradıldı, Dövlət Aqrar İnkişaf mərkəzləri təsis edildi. Ən başlıcası isə, mülkiyyətçilərə öz pay torpaqlarını əkib-becərmək, heyvandarlığı inkişaf etdirmək üçün subsidiyalar verildi, digər güzəştlər olundu. Xarici ölkələrdən ən müasir texnikalar, avadanlıqlar alınıb gətirildi. Bütün bunlar sahibkarların əlindən tutdu. Torpağını satmaq və ya kiməsə icarəyə vermək istəyən adamların bir qismi fikirlərini dəyişdilər, özləri qollarını çırmayıb işə girişdilər.

Lənkəran çayı keyfiyyətinə və ekoloji cəhətdən təmizliyinə görə istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Üstəlik xarici bazarlarda baha qiymətə satıldığı üçün istehsalçılara yaxşı qazanc verir. Çay ixrac məhsulu kimi həm də ölkəmizə valyuta gətirir. Dediklərimiz aqrar sahəyə, o cümlədən çayçılığın inkişafına dövlət tərəfindən verilən dəstəyin nəticəsidir. 2018-2025-ci illər üçün çayçılığın inkişafı ilə bağlı dövlət proqramının qəbul edilməsi, çay istehsalçılarına 15 milyon manata yaxın kreditlərin verilməsi hədər getməyib.

"Yaşıl çay" MMC Lənkəranın İstisu qəsəbəsinin ərazisindədir. Sovetlər dövründə də burada iri çay plantasiyaları və çay fabriki olmuşdur. MMC-nin rəhbəri Araz Yaqubov əslən bu qəsəbədəndir. Uzun müddət Rusiya Federasiyasında təhsil alıb, işləyib. Azərbaycanda sahibkarlar üçün yaradılan şəraiti görəndə yığışıb öz el-obasına gəlib. İstisu qəsəbəsində bələdiyyə torpaqlarından icarəyə götürüb, plantasiyalar salıb. Qəsəbə əhalisini yaratdığı təsərrüfata işə götürüb.

*Bax: səh. 4*

# Azərbaycanda "Omikron" ştamı sürətlə yayılır

**İki ildən artıqdır ki, bütün dünya yeni növ koronavirusun gətirdiyi narahatlıq və qüssə içərisindədir. Statistik məlumatlara əsasən, virusa yoluxma sayına görə ilk beşlikdə olan dövlətlər ABŞ, Hindistan, Braziliya, Fransa və Böyük Britaniyadır. Lakin digər ölkələrdə də vəziyyət ürəkaçan deyil. Koronavirusun yeni ştamı olan "Omikron" meydana çıxandan sonra isə bir sıra ölkələrdə gündəlik yoluxma sayında rekord göstəricilər qeydə alınır.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik bülleteninə görə, son bir həftə ərzində 21 milyondan çox insan koronavirusa yoluxub ki, bu, pandemiyanın başlanğıcından bəri ən yüksək göstəricidir.

Məlumata əsasən, yanvarın 17-dən yanvarın 23-dək dünyada xəstələnmənin artması əvvəlki həftə ilə müqayisədə 5 faiz olub, 21 362 288 yoluxma faktı təsdiqlənib. Həftə ərzində ölüm də artıb - 49 890 ölüm qeydə alınıb ki, bu da bir həftə əvvəlkindən 1 faiz çoxdur.

Şərqi Aralıq dənizində - 39 faiz, Cənub-Şərqi Asiyada - 36 faiz, Avropada - 13 faiz artım müşahidə olunur. Afrikada - 31 faiz və Amerikada - 10 faiz daha az yoluxma qeydə alınıb. Eyni zamanda dünyada bütün yeni infeksiyaların 47 faizi Avropanın payına düşür, yeddi gün ərzində regionda 10 milyondan çox yoluxma halı aşkarlanıb. ABŞ-da bir həftə ərzində 4 215 852, Fransada 2 443 821, Hindistanda 2 115 100, İtaliyada 1 231 741 yoluxma halı aşkarlanıb.

Təəssüf ki, son günlər ölkəmizdə də koronavirusa yoluxanların sayında artım müşahidə olunur. Bu rəqəm günün statistikasına görə 3000 nəfəri ötüb.

Səhiyyə Nazirliyinin məlumatına görə, ölkəmizdə "Omikron" ştamının yeni dalğası müşahidə olunur. Nazirlik bununla bağlı vətəndaşlara müraciət edib.

Səhiyyə Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Pərviz Əbubəkirov deyib: "Peyvənd sertifikatının etibarlılıq müddəti altı aydır. Həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının təlimatında iki doza vurulması nəzərdə tutulan peyvəndin bir dozasını aldıqda peyvənd sertifikatının qüvvədə olması müddətsiz olaraq uzadılır.




*Ardı 6-cı səh.*



Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# Qarabağın quruculuğunda sürətli mərhələ başlayır

## İşğaldan azad edilmiş ərazilərimizdə aparılan kompleks bərpa işləri Prezident İlham Əliyevin qətiyyətinin və iradəsinin təcəssümüdür

*Əvvəli 1-ci səh.*

2021-ci il həm növbəti möhtəşəm layihələrin təməlinin qoyulması, həm də icra edilən layihələrin başa çatdırılması ilə əlamətdar oldu. Güləbird Su-Elektrik Stansiyasının, 7 yarımtsansiyanın, Suqovuşan və Talışa gedən yolların istifadəyə verilməsi, Şuşanın su və elektrik təchizatının təmin edilməsi, Bülbülün ev-muzeyinin, Molla Pənah Vaqifin məqbərəsinin, o cümlədən büstünün, Üzeyir bəy Hacıbəylinin heykəlinin, Xarıbülbül və Qarabağ hotellərinin açılışı göstərdi ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası həm də kompleks xarakter daşıyır. Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanı kimi nəhəng və möhtəşəm layihələrin tam başa çatdırılması isə müharibədən yeni çıxmış dövlətimizin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi. Qısa dövrdə bu cür iri infrastrukturların yaradılması haqlı olaraq bütün dünyada heyrət və maraq doğurur. Bütün bu layihələr dövlətimizin öz maddi imkanları ilə həyata vəsiqə almışdır.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri ilə bağlı bir vacib məqamı da xüsusi qeyd etmək yerinə düşər. Məlum olduğu kimi, infrastrukturla bağlı bəzi layihələrin həyata keçirilməsi, xüsusən qarlı, şaxtalı havalarda Şuşada, Kəlbəcərdə yüksəkgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, dağlardan keçən Zəfər yolunun tikintisi böyük zəhmət və fədakarlıq tələb edirdi. Məhz daxili imkanlar və bacarıqlı kadrların hesabına bütün bu işlər qısa müddətdə başa çatdırıldı.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə hərbi quruculuq işləri də sürətlə həyata keçirildi, yeni hərbi hissələr yaradıldı.

### İlham ƏLİYEV: "Hər şey əsaslı olmalıdır və ora qayıdacaq insanlar ən yaxşı şəraitlə təmin edilməlidir"

Hazırda Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı layihələrin icrası davam edir. Ötən il Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza səfərləri zamanı Ağdam, Füzuli şəhərlərinin baş planları təsdiq olunaraq təməlləri qoyulub. Eyni zamanda Şuşada birinci məhəllənin, Ağdam şəhərində ilk yaşayış binasının və 1 saylı məktəbin, Ağdam Sənaye Parkının, Laçın Beynəlxalq Hava Limanının, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, mərkəzi xəstəxananın, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, ilk çoxmənzilli yaşayış məhəlləsinin, memorial kompleksin, Füzulidə çoxmənzilli yaşayış məhəlləsinin, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, Dövlətyarlı kəndində "Ağıllı kənd"in, Zəngilan rayonunda "Ağıllı kənd"in, Beynəlxalq Hava Limanının, Rəqəmsal Yarımstansiyanın, "Dost Aqropark"ın təməli qoyulub. Şuşada Radio-Televiziya Yayım Stansiyasının, mərkəzi xəstəxananın təməlqoyma mərasimində iştirak edib.

Bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda işğaldan azad edilmiş bütün əraziləri əhatə edən yol şəbəkəsi qurulur. Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Hadrut, Hadrut-Cəbrayıl-Şükürbəyli, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Xudafərin-Qubadlı, Laçın, Qubadlı-Eyvazlı, Füzuli-Ağdam yolları ən müasir standartlar səviyyəsində inşa olunur. Bu layihələr üzrə avtomobil yollarının uzunluğu 700 km-dən artıq olacaq. Bu yolların bir qismi ən mürəkkəb relyef şəraitində inşa olunur.

O cümlədən azad edilmiş torpaqlarımızda yeni dəmiryolu infrastrukturu da yaradılır. Horadiz-Ağbənd dəmir yolu xətti həm azad olunmuş torpaqlara, həm də Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Ağdam-Bərdə dəmir yolu xətti də istifadəyə verildikdən sonra Ağdam və digər rayonlarda aparılan tikinti-bərpa və abadlıq-quruculuq işlərinə töhfə verəcək.

Yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bu il artıq infrastruktur layihələri ilə yanaşı, şəhərsalma layihələrinin də icra ediləcəyini bildirmişdi: "Biz indi məktəblərin, xəstəxanaların təməlini qoyduq. Ağdam, Füzuli şəhərlərinin baş planı hazırdır. Digər şəhərlərin baş planlarının hazırlanması ilə bağlı müvafiq şirkətlərlə sazişlər imzalanıb. Biz istəyirik ki, hər şey əsaslı olsun. Həm tez edək, eyni zamanda, tələskənliyə yol verməyək. Çünki hər şey əsaslı olmalıdır və ora qayıdacaq insanlar ən yaxşı şəraitlə təmin edilməlidir. Çünki bu insanlar 30 il ağır vəziyyətdə yaşayırdılar. Düzdür, onların bir çoxu dövlət tərəfindən ayrılmış gözəl mənzillərdə yaşayırdı, ancaq onlar həmişə Vətən həsrəti ilə, öz torpaqlarının həsrəti ilə yaşamışlar. Biz elə şərait yaratmalıyıq ki, onlar bundan sonra rahat yaşasınlar. Ona görə həm vaxt itirməməliyik, həm də tələsməməliyik. Hər şey əsaslı olmalıdır".

Təbii ki, işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər bununla bitmir. Bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurun bərpası hərtərəfli olmaqla kompleks şəkildə həyata keçirilir. Doğma yurdlarından köçkün düşmüş vətəndaşlarımızın öz evlərinə qayıtması üçün görülən işlər bütün sahələri əhatə edir. Bu baxımdan 2022-ci il Qarabağ və Şərqi Zəngəzurun bərpa və quruculuğunda növbəti mühüm mərhələ olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan sülhə hazırdır

## İndi Ermənistan düzgün seçim etməlidir

*Əvvəli 1-ci səh.*

44 günlük Vətən müharibəsində biabırcasına məğlub olan təcavüzkar Ermənistana son bir ildə törətdiyi təxribatlar, mülki və hərbi vətəndaşlarımızın hədəf alınmaları bağışlanmayacaq: "...Əfsuslar olsun ki, bugünə qədər biz insanları itiririk. Müharibədən sonra 200-ə yaxın Azərbaycan vətəndaşı - mülki və hərbi vətəndaş ya həlak olub, ya da ki, ciddi yaralanıb. Təəssüf ki, bizim bundan əvvəlki cəza xarakterli bütün cavab tədbirlərimiz Ermənistan üçün ibrət dərsi olmayıb. Dünənki hadisə də istisna deyil. Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq..."

Azərbaycan Prezidentinin xüsusi qeyd etdiyi kimi, hərbi quruculuq prosesinin bu baxımdan davam etdirilməsi olduqca vacibdir. Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması strateji vəzifədir. İkinci Qarabağ müharibəsi bundan sonra nə etməli olduğumuzu, hərbi infrastrukturun hansı elementlərinin ya istifadə edilməməsini, ya çox məhdud formatda istifadə edilməsini, ya da onların zəif olmasını göstərdi. Bu isə böyük təcrübədir: "...Əslində bizim hərbi quruculuğu davam etdirməyimiz bununla izah olunur. Burada bir neçə aspekt var. Birincisi, müharibə dövründə biz, əlbəttə, çoxlu sayda döyüş sursatından istifadə etmişik, indi biz onları bərpa etməliyik və bağlanmış yeni kontraktlar bizim üçün bunu təmin edir. Artıq silah və sursat tədarükü gedir. Növbəti məqam - müxtəlif xarakterli müasir silah sistemlərinin alınmasıdır. Biz bu məsələyə həmişə böyük əhəmiyyət vermişik. Ona görə ki, hərbi texnologiya inkişaf edir və biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik. Bildiyiniz kimi, bizə silah satmaq istəyənlərin sayı baxımından problemimiz yoxdur. Üçüncüsü - Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması. İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim Silahlı Qüvvələr bu yoxlamadan şərəflə çıxdılar".

Müharibə başa çatdıqdan sonra dünyanın hərb sahəsində inkişaf etmiş dövlətləri belə Azərbaycan Ordusunun apardığı XXI əsrin döyüşlərinə heyranlıqlarını gizlətmədilər. Silahlı Qüvvələrimiz 44 gün ərzində istifadə etdiyi texnika və texnologiya və dəyişilən taktika ilə işğalçı Ermənistanın ordusunu, demək olar ki, darmadağın etdi. Müharibədən sonra isə yeni ordu növü olan Komando qüvvələrinin yaradılması böyük hadisədir və hərbi qüdrətimizin təzahürüdür : "Komando qüvvələrinin yaradılması bizim hərbi potensialı təkmilləşdirmə elementlərindən yalnız biridir və lakin çox vacib elementdir. Bu proses başlanıb və artıq dediyim kimi, davam etdiriləcək..."

Xüsusi təyinatlı qüvvələrin İkinci Qarabağ müharibəsi dövründə, ələlxüsus Şuşanın alınmasında göstərdiyi fədakrlıq dillər əzbərinə çevrilib. Müzəffər Ali Baş Komandan da çıxışlarının hər birində bunu xüsusi qeyd edir. Buna görə də dövlət başçısının da vurğuladığı kimi, həmin qüvvələrin təkmilləşdirilməsi vacibdir. Azərbaycan Silahlı Qüvvələrinin xalqımızı və dövlətimizi bütün mümkün təhlükələrdən qoruya bilməsi barədə hər zaman düşünməliyik: "Xüsusi təyinatlı qüvvələr İkinci Qarabağ müharibəsi dövründə özlərini ən yaxşı cəhətdən göstərdilər. Mən bunu dəfələrlə demişəm. Buna görə də həmin qüvvələrin təkmilləşdirilməsi, həmçinin xüsusi təyinatlı yeni qüvvələrin yaradılması vəziyyətin diktə etdiyi zərurətdir. Söhbət revanş cəhdlərindən gedir. Söhbət ondan gedir ki, bir ildən, iki ildən, beş ildən sonra nə olacağını bilmirik. Bu gün Ermənistan ordusu tamamilə bərbad vəziyyətdədir və İkinci Qarabağ müharibəsi dövründə olduğundan daha artıq dərəcədə bizə müqavimət göstərməyə qabil deyil. Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".

Azərbaycanın siyasəti tam aydındır - istər müharibə ilə bağlı, istər keçmiş Qarabağ münaqişəsinin baş vermiş həlli ilə bağlı, istər gələcək planlarla bağlı. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanımalı, sərhədlərin delimitasiyası ilə bağlı işlərə, habelə kommunikasiyaların açılması ilə bağlı olan prosesə start verilməlidir və nəticədə sülh müqaviləsi imzalanmalıdır. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz zəmanət olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir.

Daha sonra ölkə Prezidenti qeyd etdi ki, sülh müqaviləsi imzalanarsa, orada mütləq hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması müddəası olmalıdır. Rəsmi İrəvan düzgün seçim etməlidir. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün yüz dəfə daha çox əsasımız var. Çünki hər kəs, o cümlədən dünya ictimaiyyəti də yaxşı bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur Azərbaycandan ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə Azərbaycan sülhə hazırdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Zəngəzur dəhlizi - Azərbaycan Avropa ilə Asiyanı birləşdirir

## İlham Əliyevin qətiyyətli iradəsi ilə reallaşmaqda olan bu tarixi layihə bölgədə sülhün, strateji və iqtisadi əməkdaşlığın inkişafının təminatçısı olacaq

*Əvvəli 1-ci səh.*

### Horadiz- Zəngilan-Ağbənd dəmir yolu - işlərin 70 faizi tamamlanıb

Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti yeni dəhlizin bir hissəsidir. Dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 70 faizi tamamlanıb. İşğaldan azad edilən Cəbrayıl rayonunun Mahmudlu stansiyasına qədər 23 kilometrlik məsafədə relslər qoyulub və yolun sazlanması işlərinə başlanılıb.

Dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 km təşkil edir. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Birinci mərhələ Horadiz, Mərcanlı, Mahmudlu stansiyalarını əhatə etməklə 30 km, ikinci mərhələ Soltanlı, Qumlaq stansiyalarını əhatə etməklə 55 km, üçüncü mərhələ isə Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə etməklə 25,4 km təşkil edir.

Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın süni mühəndis qurğusunun tikintisi planlaşdırılır.

Birinci mərhələ üzrə artıq torpaq işlərinin 90 faizi yerinə yetirilib, 40 suötürücü boru, 9 körpü, 2 heyvan keçidi, 52 ehtiyat keçidi tam tikilib. Yolun 23 km-lik hissəsində üst quruluşu elementləri quraşdırılıb. Bununla da Füzulinin Horadiz stansiyasından Cəbrayılın Mahmudlu stansiyasına qədər işçi qatarların hərəkəti üçün zəruri şərait yaradılıb.

Layihələndirmə və tikinti işləri minatəmizləmə prosesinə paralel həyata keçirilir. Hazırda 60 km-dən çox ərazi minalardan təmizlənib. 50 km-lik hissədə layihələndirmə işləri yekunlaşıb. Keçən ilin dekabr ayından ikinci mərhələ üzrə torpaq işlərinə başlanılıb. Hazırda Mahmudlu stansiyasından Qumlaq stansiyasına qədər olan 30 km-lik ərazidə yolun torpaq yatağının hazırlanması üzrə intensiv işlər aparılmaqdadır. Layihə üzrə nəzərdə tutulan bütün işlərin 2023-cü ildə tamamlanması planlaşdırılıb.

Qeyd edək ki, Ermənistan tərəfi öncə müxtəlif bəhanələrlə üzərinə düşən öhdəliyin icrasını gecikdirmək istəyirdi. Ancaq təzyiqlərdən sonra dəhlizin Ermənistan ərazisindən keçən hissəsində dəmir yolu xəttinin çəkilişlərinə start verilib.



Bu günlərdə Ermənistan Baş nazirinin müavini Mher Qriqoryan qeyd edib ki, Zəngəzur dəhlizinin tərkib hissəsi olan dəmir yolu ilə bağlı müsbət məqamlar var. Hazırda bu istiqamətdə konkret işlər görülür, dəmir yolunun Ermənistandan keçən 45 kilometrlik hissəsində tikinti aparılır.

Ümumiyyətlə, bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Ümumiyyətlə isə, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu istər Azərbaycan, istərsə də region ölkələri üçün böyük strateji önəm daşıyır.

Dəhliz uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikasını bu ağır şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzur torpağına yenidən qayıdışını təmin edəcək. Eyni zamanda Rusiya-Türkiyə, Rusiya-İran, Rusiya-Ermənistan arasında birbaşa dəmir yolu əlaqəsi qurulacaq ki, bu da bölgədə strateji, iqtisadi və siyasi əlaqələrin yaranmasına böyük töhfə verə bilər. Eyni zamanda, Azərbaycan ilə Türkiyə arasında Bakı-Ceyhan-Qars dəmir yolu ilə yanaşı, ikinci dəmir yol xətti olacaq. Ən önəmlisi isə, bu dəmir yol xətti gələcəkdə Azərbaycandan keçməklə Cənubi Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da öz növbəsində, Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək.

### Dəhliz bütün Zəngəzur bölgəsini əhatə etməlidir

Ötən il oktyabrın 26-da isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngəzur dəhlizinin bir parçası olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyulma mərasimi keçirilib.

Uuzunluğu 123,8 km olan bu yol 4-6 hərəkət zolaqlı olacaq. Hazırda yolun tikintisi sürətlə aparılır və 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Son məlumatlara əsasən avtomobil yolu üzrə texniki göstəricilər: 123,8 kilometr, I texniki dərəcəli, 4-6 hərəkət zolaqlıdır. Yolun 0-23, 35-76, 82-83, 94-95, 101-112-ci kilometr hissələrində torpaq yatağının tikintisi aparılır. Torpaq işləri 30 faiz, boru və keçidlərin tikintisi 29 faiz, körpülərin tikintisi 27 faiz icra olunub. Ümumi uzunluğu 6 kilometr təşkil edən 3 avtomobil tunelinin inşası işlərinə start verilib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azəbaycan bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmır. Çünki bu dəhlizdən həm dəmir yolu, həm avtomobil yolu keçəcək. Növbəti iş isə gələcəkdə oradan Naxçıvana elektrik xətlərinin çəkilməsidir. Eyni zamanda qaz xətləri də dəhlizdən keçə bilər. Beləliklə, Prezidentin də söylədiyi kimi, Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir.

Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi, Qərblə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin rəqabət qabiliyyətinin, həm də siyasi və iqtisadi qüdrətinin dəfələrlə artmasına real potensial formalaşacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici işlər naziri Ümumdünya Gömrük Təşkilatının Baş katibi ilə görüşüb

Yanvarın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş katibi Kunio Mikuriya ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Azərbaycan Respublikasının gömrük xidmətinin 30 illik fəaliyyəti müddətində göstərdiyi dəstəyə görə ÜGT-ə və təşkilatla səmərəli əməkdaşlığın təmin edilməsində oynadığı rola görə Baş katibə öz minnətdarlığını bildirib. Azərbaycanın xarici işlər naziri Kunio Mikuriyanı dövlətimizin başçısının 2022-ci il yanvarın 28-də imzaladığı müvafiq sərəncamla "Dostluq" ordeni ilə təltif edilməsi münasibətilə təbrik edib.

Azərbaycanın Şərqlə Qərb arasında körpü və müxtəlif marşrutların qovşağında yerləşən ölkə qismində strateji mövqeyinə toxunan nazir, ölkəmizin tranzit imkanlarından danışıb. O, indiyədək regionda xüsusilə enerji və nəqliyyat sahəsində beynəlxalq əhəmiyyətli nəhəng layihələrin müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayaraq, hazırkı şəraitin yaratdığı geniş imkanlardan ÜGT-nin də dəstəyindən və təcrübəsindən istifadə etməklə faydalanmağın vacibliyini ifadə edib.

Nazir bölgədə münaqişə sonrası vəziyyətdən danışaraq iki ölkə arasında münasibətlərin normallaşması üçün imkanların yarandığını və bu xüsusda Azərbaycan tərəfindən konkret addımların atıldığını qeyd edib. O, ölkəmizin regionda nəqliyyat-kommunikasiya xətlərinin açılmasının təşəbbüskarı kimi çıxış etdiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Baş katib Kunio Mikuriya nazir Ceyhun Bayramova səmimi qəbula görə minnətdarlığını bildirib. O, Azərbaycanın xüsusilə gömrük sahəsində yaxşı bir model ölkə olduğunu və bu təcrübədən digər ölkələrin, xüsusilə Avrasiya bölgəsi və Mərkəzi Asiya ölkələrinin faydalanmasını daim tövsiyə etdiyini diqqətə çatdırıb. Baş katib Azərbaycanla Ermənistan arasında əlaqələrin inkişaf etdirilməsi üçün qarşılıqlı etimad yaradan addımların atılmasının, beynəlxalq və regional səciyyəli birgə layihələrin icra edilməsinin vacibliyinə toxunub. O, ÜGT-nin bu prosesə dəstək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov Baş katibin Azərbaycan gömrük xidmətinin 30 illiyinin qeyd edildiyi bir tarixdə ölkəmizə səfər etməsini yüksək qiymətləndirdiyini vurğulayaraq qarşı tərəflə bundan sonra da əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Bəzi beynəlxalq təşkilatlar kapitulyasiyaya imza atan Ermənistana təsəlli verməyə çalışırlar

Avropa Şurasında, eləcə də müxtəlif beynəlxalq təşkilatlarda müharibədə kapitulyasiya edən Ermənistana hər yolla təsəlli vermək istəyirlər. Bu təsəlli hazırlanan sənədlərdə də əksini tapır.

Ermənistanda gedən prosesləri dəstəkləmək, onlara yardım göstərmək və bu istiqamətdə müxtəlif işləri təşkil etmək, hətta məruzələrdə ermənilərin istədiyi formada ifadələrdən istifadə etmək kimi vasitələrə əl atılır.

Bu fikirləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində ifadə edib.

Bildirib ki, məruzələrdə istifadə olunan ifadələr Avropa Şurasının, eləcə də digər təşkilatların rəsmi sənədlərində yoxdur. Ancaq bu məruzə Ermənistana gedir, bəzi ermənipərəst qüvvələrin bu sənəddən öz məkrli məqsədləri üçün istifadə etdiklərinə görə onlara bu şəkildə dəstək verilir.

"Bütün bunlara baxmayaraq, Azərbaycan nümayəndə heyətinin üzvləri öz sözlərini dedilər. Xüsusilə də minalarla bağlı sözümüzü dedik. Çox çalışırdılar ki, mina məsələsini gündəmdən çıxarsınlar, ancaq bunu bacarmadılar. Bununla bağlı fikrimizi təkidlə bildirdik və bu məsələ məruzədə öz əksini tapdı.

Ermənistan indi həm Qərblə münasibətlər qurmaq, həm də onlara regionda dəstək verən qüvvələrlə, xüsusilə də Rusiya ilə əlaqələri saxlamaq niyyətindədir", - deyə S.Seyidov diqqətə çatdırıb.

O qeyd edib ki, COVID-19 pandemiyası ilə əlaqədar Fransada gündəlik yoluxmanın 500 mini keçməsinə baxmayaraq, Azərbaycanın iki deputatı sessiyada şəxsən iştirak edir, nümayəndə heyətinin digər üzvləri isə müzakirələrə onlayn formatda qoşulurlar. Nümayəndə heyətimizin üzvləri Avropa Şurası Parlament Assambleyasının müxtəlif komitələrinə rəhbər vəzifələrə seçiliblər ki, bu da bizə öz sözümüzü çatdırmağa imkan yaradır. Bundan sonra da AŞ PA-da fəaliyyətimizi uğurla davam etdirəcəyik.

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsindəki Zəfərindən sonra AŞ PA sessiyalarında qalib dövlətin vətəndaşları kimi iştirak edirik. Sessiyalarda ab-hava artıq dəyişib.

Biz həqiqətləri söyləyirik, ölkəmizin milli maraqlarını müdafiə edirik. Bizimlə münasibətləri yüksək səviyyədə təşkil edənlərə dəstək, bizə qarşı çıxanları isə açıq şəkildə tənqid edirik. Çünki Prezidentimizə və xalqımıza arxalanırıq. Qarabağ Azərbaycandır!",- deyə S. Seyidov vurğulayıb.

# İtkin düşmüş baş leytenant Fuad Bağırovun axtarışları davam etdirilir

Yanvarın 29-da Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Alagöllər sahəsində hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən dörd hərbi qulluqçumuzun itkin düşməsi ilə bağlı brifinq keçirib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov işğaldan azad olunmuş Kəlbəcər və Laçın rayonlarının ərazisinin çətin relyefli, əsasən dağlıq və meşə sahələrindən ibarət olduğunu vurğulayıb. Qeyd edib ki, qış ayları bu rayonlarda çox sərt keçir və havanın temperaturu gecələr mənfi 15-20 dərəcə arasında dəyişir. Temperatur bəzən mənfi 30 dərəcəyə qədər aşağı düşür. Kəlbəcər və Laçın rayonlarında infrastrukturun və şəraitin olmamasına baxmayaraq, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində qısa müddətdə burada xidmət edən hərbi qulluqçuların sosial məişət şəraiti yaxşılaşdırılıb. Yeni inşa edilən və ya əsaslı təmir olunan yaşayış məntəqələri bu rayonlarda dislokasiya olunan hərbi hissələrin istifadəsinə verilib. Bununla da bu hərbi hissələrdə qoşun xidmətinin təşkili, eləcə də döyüş növbətçiliyinin aparılması və döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün münbit şərait yaradılıb. Azərbaycan Ordusunun mühəndis qoşunları digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə yolların daima işlək vəziyyətdə saxlanılması və bölmələrin fasiləsiz təminatını həyata keçirmək üçün lazım olan bütün tədbirləri həyata keçirirlər. Bu tədbirlərə yolların qar örtüyünün təmizlənməsi və işarəedici çubuqların basdırılması da daxildir. Lakin çovğun və külək nəticəsində bəzən təmizlənmiş yollar qısa müddətdə yenə də qarla örtülür.

Qeyd edilib ki, Kəlbəcər rayonunun Alagöllər sahəsində hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən xidməti vəzifəsini icra edən dörd hərbi qulluqçumuz - baş leytenant Bağırov Fuad Allahverdi oğlu, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseynov Cavad Rauf oğlu, əsgər Hüseynov Maşallah Rövşən oğlu və əsgər Kərimov Yasin Yavər oğlu ərazidə istiqaməti itirərək azıb. Hərbi qulluqçularımızın tapılması məqsədilə dərhal təxirəsalınmaz tədbirlərə başlanılıb. Ərazinin çətin relyefli yüksəklikdə və qarla örtülməsini nəzərə alaraq kifayət qədər şəxsi heyət və xüsusi texnika cəmləşdirilib, axtarış işlərinə cəlb olunan şəxsi heyət mütəmadi olaraq isti yemək və çayla təmin edilib.

Keçirilən axtarışlar nəticəsində yanvarın 29-u səhər saatlarında kiçik çavuş C.Hüseynov, əsgər M.Hüseynov və əsgər Y.Kərimov tapılıb. Onlar Kəlbəcərdəki hərbi hospitala yerləşdirilərək həkim nəzarətinə götürülüb. Hazırda itkin düşmüş baş leytenant F.Bağırovun tapılması məqsədilə axtarış-xilasetmə tədbirləri davam etdirilir.

# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb





Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, ehtiyatda olan bir qrup hərbi vəzifəlilərin cəlb olunması ilə N saylı hərbi hissədə keçirilən təlim toplanışları başa çatıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplanışın əsas məqsədi Vətən müharibəsində əldə edilən təcrübələr nəzərə alınmaqla hərbi vəzifəlilərin döyüş vərdişlərini və hərbi ixtisas biliklərini təkmilləşdirməklə yanaşı, ordumuzun arsenalındakı müasir silah və hərbi texnikalar ilə yaxından tanış etmək, istismar qaydalarını, döyüş tətbiqi üsullarını öyrətməkdir. Toplanışa cəlb olunan hərbi vəzifəlilər müxtəlif çaplı atıcı silahlardan praktiki atəş çalışmalarını yerinə yetiriblər. İştirakçılara hücum və müdafiə döyüşlərinin əsasları, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqədə əməliyyatların aparılması üsulları öyrədilib. Tank bölmələri ilə birgə şərti düşmən mövqelərinin ələ keçirilməsi və ərazidə yenidən tərtiblənmə üzrə tapşırıqlar yerinə yetirilib.

Təlim-məşqlərin ssenarisinə uyğun olaraq yaşayış məntəqələrində axtarış aparan və aşkarlanan kəşfiyyat-diversiya qruplarının zərərsizləşdirilməsi üzrə döyüş tapşırıqları da icra edilib. Ümumiyyətlə, təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Toplanış konsert proqramı ilə başa çatıb.

# Bakı-Şuşa-Bakı avtobusunun sərnişinləri Şuşadan yüksək təəssüratla ayrılıblar

**Bakı-Şuşa-Bakı marşrutu ilə hərəkət edən növbəti sərnişin avtobusu yanvarın 29-da Şuşa şəhərinə gəlib.**



AZƏRTAC xəbər verir ki, saat 13 radələrində Şuşaya çatan avtobusda 45 sərnişin olub. Sərnişinlər şəhərin mərkəzi meydanında Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəliyinin, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, Şuşa Şəhəri Polis Şöbəsinin əməkdaşları tərəfindən qarşılanıblar. Onlar Şuşa qalası, Natəvan bulağı, Şuşanın mərkəzi meydanında Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəlləri, Yuxarı Gövhər ağa məscidi, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Cıdır düzü kimi tarixi məkanları ziyarət edib, mədəniyyət paytaxtı elan olunan Şuşa şəhəri ilə əyani tanış olublar. Sərnişinlərə getdikləri tarixi məkanlar haqqında, eləcə də erməni vandalizmi barədə məlumat verilib.

Səfər iştirakçıları təəssüratlarını AZƏRTAC ilə bölüşüblər. Vətən müharibəsi iştirakçısı Telman Abbasov deyib: "Vətən müharibəsi zamanı bu yerlərə döyüşə-döyüşə gəlmişdik. Şəhidlərimiz, yaralılarımız oldu. İşğaldan azad edilmiş torpaqlara yenidən ayaq basmaq





tamam başqa bir hissdir. Fəxr edirəm, qürur hissi keçirirəm ki, Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Bu gün də turist kimi buraya gəlmişəm".

Əfqan Əsədov: "Həmişə bu torpaqları gəlib görməyi, Cıdır düzündə gəzməyi arzu edirdim. Xəyalıma belə gətirməzdim ki, bu arzularım tezliklə reallaşacaq. Bu sevinci bizə nəsib edən Ali Baş Komandana, ordumuza minnətdarlığımı bildirirəm. Bülbülün ev-muzeyində, Şuşa qalasında və digər tarixi məkanlarda olduq. Səfərdən razıyıq. Təəssüratlarımız çox yüksəkdir. Səfərin təşkilatçılarına minnətdarlığımı bildirirəm".

Şuşa ilə tanış olan Bakı-Şuşa-Bakı avtobusunun sərnişinləri bu qədim diyardan yüksək təəssüratla ayrılıblar.

# *Şuşa avtobusunun sərnişini:* "Şuşa tək şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əzizdir"

Bu gün illərlə arzuladığımız, amma görə bilmədiyimiz gözəl Şuşadayıq. Uşaqlıqdan valideynlərimizin, ağsaqqallarımızın Şuşa, Qarabağ haqqında danışdıqları bizim üçün xəyal olaraq qalmadı, reallaşdı.

AZƏRTAC xəbər verir ki, bu sözləri yanvarın 29-da Bakı-Şuşa-Bakı marşrutu ilə hərəkət edən növbəti sərnişin avtobusunda Şuşa şəhərinə gələn Vüsal Rzazadə bildirib. O deyib: "Şuşa tək şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əzizdir. Azərbaycanın hər bölgəsinin vətəndaşı bu gün şuşalıdır, qarabağlıdır. Özümü xoşbəxt hesab edirəm ki, Şuşadayam. Buna görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, ordumuza minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin".

# Gəncləri səsləyirəm ki, gəlsinlər, Şuşamızı görsünlər

Şuşada olduğum üçün çox sevincliyəm, həyəcanlıyam, qürurluyam. Çünki 30 il sonra öz torpaqlarımıza qayıtmışıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri yanvarın 29-da Bakı-Şuşa-Bakı marşrutu ilə hərəkət edən növbəti sərnişin avtobusunda Şuşa şəhərinə gələn Nəzrin Əzizova bildirib. Şuşa torpağını müqəddəs hesab etdiyini söyləyən Nəzrin Əzizova deyib: "Mən Şuşadan Bakıya torpaq aparıram. Çünki bu torpaq çox müqəddəsdir. Bu torpaqda şəhidlərimizin qanı var. Bunu özümə borc bildim. İndi Qarabağın ən gözəl yerində - Cıdır düzündəyik. Təşkilatçılara təşəkkür edirəm ki, bizə bu şəraiti yaratdılar. Bu müqəddəs torpaqları gördük. Buraya Zəfər yolu ilə gəldik. Gözəl, mənzərəli yollardan keçdik. Gəncləri səsləyirəm ki, gəlsinlər, Şuşamızı görsünlər".

# Türkiyə ilə əmək və sosial müdafiə sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində qardaş ölkənin əmək və sosial müdafiə nazirinin müavini Adnan Ertəm ilə görüş keçirilib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki ölkə arasında bütün sahələrdə olduğu kimi, sosial sahədə də əməkdaşlıq əlaqələrinin inkişaf edərək genişlənməsindən məmnunluq ifadə edilib. Azərbaycanda aparılan sosial islahatlar və müsbət nəticələr, sosial sahədə innovativ həllərin geniş tətbiqi, eləcə də sosial xidmətlər sahəsində görülən işlər barədə ətraflı məlumat verilib.

Nazir müavinləri iki nazirlik arasında qarşılıqlı əməkdaşlıq sahələrində görülən işlərə, əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin dəvəti ilə həyata keçirilən səfər çərçivəsində nümayəndə heyəti həmin nazirlikdə və onun qurumlarında bir sıra görüşlər keçirib, həmin qurumlarla təcrübə mübadiləsi aparıblar.

Səfər müvafiq fəaliyyət sahələri, həmçinin sosial xidmətlər, tibbi-sosial ekspertiza və reabilitasiya sahələri üzrə qarşılıqlı təcrübə mübadilələrinin və gələcək əməkdaşlıq məsələlərinə dair müzakirələrin aparılması məqsədinə xidmət edib.

# İstanbulda Qarabağ Zəfərinə gedən yolda dəstək göstərən media nümayəndələri ilə görüş keçirilib

Yanvarın 29-da İstanbulda Vətən müharibəsi və daha əvvəl Qarabağ Zəfərinə gedən yolda dəstək göstərən media nümayəndələri ilə görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycanın Türkiyədəki səfirliyi, ölkəmizin İstanbuldakı baş konsulluğu, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu və Qars-Ərdahan-Iğdır İnkişaf Vəqfinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutub.

Mərasimdə Qars müqaviləsinin 100-cü ildönümü perspektivləri, Türkiyə-Azərbaycan əməkdaşlığı, Şuşa Bəyannaməsi və Zəngəzur dəhlizi başda olmaqla, Ermənistanla normallaşma dövrü kimi bir sıra mövzularda müzakirələr aparılıb.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri professor Aygün Attar, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım Ermənistanın Azərbaycana qarşı uzun illər davam edən təxribatları və işğalçılıq siyasəti, hazırda davam edən normallaşma prosesi, Azərbaycan dövləti tərəfindən Qarabağda aparılan bərpa-quruculuq işləri haqqında danışıblar.

Bildirilib ki, Prezident İlham Əliyevin apardığı çox doğru hərbi və diplomatik siyasət nəticəsində Azərbaycan Vətən müharibəsində qalib gələrək bölgədə sülhü bərqərar edib. Bu Zəfər yalnız döyüş meydanında deyil, həm də informasiya cəbhəsində qazanılıb. 44 günlük Vətən müharibəsi başa çatsa da, hazırda diplomatik yollarla iki ölkə arasında normallaşma prosesi davam edir.

Qars müqaviləsi haqqında danışan natiqlər bu sənədin bölgə ölkələrinin ərazi bütövlüyü, anlaşmanın müddəalarının yerinə yetirilməsinin isə regionda davamlı sülhün təmin olunması baxımından əhəmiyyətini vurğulayıblar.

Çıxışlarda Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərinin hər iki dövlət kimi, bölgə və dünya üçün də əhəmiyyəti xüsusi qeyd edilib, Şuşa Bəyannaməsinin bu qardaşlıq əlaqələrinə hüquqi güc qazandıran sənəd olduğu vurğulanıb.

Qarabağ müharibəsindən sonra fəaliyyətə başlayan "YAŞAT" Fondunun şəhid ailələri və qazilərə göstərilən dövlət dəstəyindəki rolu xüsusi vurğulanıb.

Mərasimdə "YAŞAT" Fonduna ianə edənlərə xüsusi plaketlər təqdim olunub.

Tədbirdə QHT-lərin, siyasi partiyaların təmsilçiləri, Türkiyənin incəsənət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Mərasimdə Azərbaycan musiqisindən nümunələr səsləndirilib.

# REGİONLAR



## Tovuzda və Abşeronda Vətən müharibəsi qəhrəmanlarının orden və medalları təqdim edilmişdir

**Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüşlərdə xalqımızın digər oğulları kimi, yüzlərlə tovuzlu da əsl igidlik nümayiş etdirərək torpaqlarımızı erməni işğalçılarından azad etmişdir.**



Bu böyük Qələbədə payı olanlar arasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları - baş leytenant Eminalıyev Orxan Eyvaz oğlu, baş leytenant Mahmudov Emin Pünhan oğlu, gizir Şəkərov Xəyal İman oğlu, gizir Əliyev Fuad Ramin oğlu, əsgər Şirinov Elmar Cəbrayıl oğlu və əsgər Hüseynov Cavid Hümbət oğlu da var. Dövlət başçısının sərəncamları ilə bu igidlərimiz "Azərbaycan Bayrağı", leytenant Heydərov Vasif Nazim oğlu isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunmuşlar.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Tovuz rayon şöbəsinin rəisi Xalid Abasov, Müharibə Veteranları və Şəhid Ailələri İctimai Birliyi Tovuz rayon təşkilatının sədri Əli Əliyev və başqaları şəhidlərimizin evlərində olmuş, ailə üzvləri ilə görüşüb, ordenləri onlara təqdim etmişlər.

Qeyd edilmişdir ki, müzəffər ordumuz böyük qəhrəmanlıq göstərərək 44 günlük Vətən müharibəsində mənfur düşməni ağır məğlubiyyətə uğradaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, güclü ordu və ona rəhbərlik edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi və gərgin siyasi-diplomatik fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıkeşliyə görə minnətdarlıqlarını bildirmişlər.

❖ ❖ ❖

Abşeron rayonunda da Prezidentin müvafiq sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuş şəhidlərin ailələrinə və müharibə iştirakçılarına mükafatların təqdimetmə mərasimi keçirilmişdir.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Xırdalan şəhərində yerləşən abidəsi ziyarət edilmiş və xatirəsi dərin ehtiramla yad olunmuşdur. Sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Mərasimi giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Abdin Fərzəliyev qeyd etmişdir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən savaşında şanlı Azərbaycan Ordusu düşməni diz çökdürərək torpaqlarımızı işğalçılardan təmizlədi və ərazi bütövlüyümüzü bərpa etdi. Ali Baş Komandanın iradəsi ilə dəmir yumruğa dönən möhtəşəm xalq bu zəfəri ilə tarixə qızılı hərflərlə yeni səhifə yazdı.



A.Fərzəliyev bildirmişdir ki, bu gün Abşeron rayonunda yaşayan şəhid ailələrinin, qazilərin, eləcə də müharibə iştirakçılarının hər birinin qayğıları bundan sonra da diqqət mərkəzində olacaq: "Vətən müharibəsində canından keçən bütün şəhidlərimiz, qazilərimiz, eləcə də müharibə iştirakçılarının göstərdiyi qəhrəmanlıq, şücaət dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Prezident İlham Əliyevin sərəncamları ilə onlar orden və medallarla təltif olunmuşlar".

Sonra Prezidentin sərəncamları ilə təltif olunmuş Vətən müharibəsi iştirakçılarına və şəhidlərin - baş-leytenant Vəliyev İlqar Cahit oğlu, Cavadov Ələsgər Elxan oğlu, İsgəndərov Anar Vahid oğlu, Məcidov Səbuhi Ağalətif oğlu, kapitan Musibov Veysəl Yadullayeviçin ailələrinə orden və medalları təqdim olunmuşdur.

Tədbirdə çıxış edən şəhid ailələrinin üzvləri dövlət tərəfindən hər zaman diqqət gördüklərini, göstərilən qayğıkeşliyə görə minnətdarlıqlarını bildirmişlər.

Sonda şəhid məzarları ziyarət edilmişdir.

***Sabir ƏLİYEV,***
***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Bu il Ağdamda 9200 hektara yaxın ərazi minalardan təmizlənəcək

İşğaldan azad edilən ərazilərdə ermənilərin basdırdığı minalar Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən təmizlənir.



AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, Əlaqələndirmə Qərargahının İdarələrarası mərkəzi katibliyinin rəhbəri Nüsrət Süleymanov, Nazirlər Kabinetinin aparat rəhbəri Rüfət Məmmədov, ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov və media nümayəndələri Ağdam rayonunun Baş Qərvənd kəndi ərazisində minatəmizləmə əməliyyatı ilə tanış olublar.

ANAMA-nın mütəxəssisi Xaliq Zülfüqarov aparılan minatəmizləmə əməliyyatı barədə məlumat verib. Bildirib ki, Ağdam-Bərdə avtomobil yolunun 17 kilometrlik hissəsi hər tərəfə 24 metr olmaqla 28 metr enində tam təmizlənərək təhvil verilib. Avtomobil yolunun təmizlənməsi zamanı 55 ədəd müxtəlif növ partlamamış hərbi sursat, 602 ədəd piyada əleyhinə mina, 188 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib. Hazırda Bərdə-Ağdam dəmir yolunun Baş Qərvənd kəndi ərazisindən keçən hissəsində minatəmizləmə əməliyyatları davam etdirilir.

Sonra ərazidən tapılan minaların partlatma yolu ilə zərərsizləşdirilmə prosesi izlənilib.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov jurnalistlərə açıqlamasında bildirib ki, Ağdam rayonu ərazisində icra olunan Bərdə-Ağdam dəmir yolu xəttinin minadan təmizləmə layihəsinin uzunluğu 26,3 kilometrdir. Minatəmizləmə Agentliyi tərəfindən təxminən artıq 10 kilometr ərazi təmizlənib: "Keçmiş təmas xəttindən keçən bu ərazinin mina və partlamamış hərbi sursatlarla çirklənmə səviyyəsi yüksəkdir. Bəzi hallarda burada ancaq əllə təmizləmə üsulu ilə işləyə bilirik. İtlərdən və mexaniki minatəmizləmə vasitələrindən istifadə etmək mümkün olmur".

Vüqar Süleymanov deyib ki, Ağdam rayonu üzrə keçən il 8300 hektara yaxın ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Ötən il ərzində Minatəmizləmə Agentliyi 59 layihənin icrasına başlayıb, onlardan 48-i tamamlanaraq təhvil verilib. Bu il ərzində Ağdam rayonu ərazisində 9200 hektara yaxın ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənəcək.

## İsmayıllıda kartof əkininə hazırlıq işləri başa çatıb

İsmayıllıda bu ilin məhsulu üçün 950 hektaradək sahədə kartof əkiləcəyi gözlənilir və artıq hər yerdə əkinə hazırlıq işləri başa çatdırılıb.

Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, kartof əkiləcək bütün ərazilərdə dondurma şumu çıxarılıb, şum altına üzvi və mineral gübrələr verilib. Əkin üçün tələbata uyğun toxum tədarük olunub. Havalar əlverişli keçərsə, fevralın birinci ongünlüyündə bölgənin cənub ərazilərində əkinə başlanılacaq.

Rayonun Diyallı kənd və İsmayıllı şəhər icra nümayəndəliklərinin ərazilərində cari mövsümdə 300 hektar sahədə əkin sənaye üsulu ilə aparılacaq ki, bu da məhsuldarlığı iki dəfə artırmağa imkan verir. Qeyd edək ki, kartofçuluq rayonda əhalinin məşğul olduğu ənənəvi təsərrüfat sahəsidir. Ailə büdcəsinə heç də az gəlir gətirməyən kartofçuluğa maraq ildən-ilə artır. Təkcə ötən il bölgədə 14 min 611 ton kartof istehsal olunub ki, bu da inişilki göstəricidən 129 ton çoxdur.



## Bu il Qaxda 400 hektarda tütün əkini proqnozlaşdırılır

Builki mövsümdə Qax rayonunun təsərrüfatlarında 400 hektar sahədə tütün əkini nəzərdə tutulur.

Qaxlı fermerlər cari təsərrüfat ilində 385 hektar sahədə "Virciniya botaniki", 15 hektarda isə digər növ tütün yetişdirəcəklər.

Bu barədə AZƏRTAC-a Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Eyvaz Aslanov məlumat verib.

Qurum rəsmisi bildirib ki, tütün şitillərinin yetişdirilməsi üçün fermerlər tərəfindən fevralın əvvəllərində sadə istixanaların hazırlanmasına başlanılacaq. Ümumilikdə, təsərrüfatlarda 6 min kvadratmetr sahədə istixanaların hazırlanması nəzərdə tutulur. İstixanalarda yetişdiriləcək tütün şitilləri aprelin əvvəllərində sahələrə köçürüləcək.

Xatırladaq ki, ötənilki mövsümdə rayonda 477 hektar sahədə tütün əkilib, 560,8 ton quru tütün istehsal olunub. Torpaq mülkiyyətçiləri tütünçülükdən 130 min manatadək gəlir əldə ediblər.



## Naxçıvan MR-də 342 hektarda meşəsalma və meşəbərpa işləri aparılıb

Muxtar respublikanın meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində ötən il ardıcıl tədbirlər görülüb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2021-ci ildə 342 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 330 min ağac və gül kolu əkilib, 191 hektar toxumla yaşıllaşdırma işləri görülüb.

## Yardımlıda əhaliyə göstərilən informasiya və rabitə xidmətinin həcmi artıb

Ötən il Yardımlı rayonunda informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,4 min manat və ya 4,7 faiz artaraq 570,4 min manat təşkil edib.

Bu barədə AZƏRTAC-a Yardımlı Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, rayonda əhaliyə göstərilən informasiya və rabitə xidmətlərinin 432,7 min manatı dövlət mülkiyyətinə, 137,7 min manatı isə qeyri-dövlət mülkiyyətinə aid müəssisələrin payına düşüb.

## Sumqayıt teatrı mövsümə uşaq tamaşası ilə başlayır

İlin əvvəlindən Sumqayıt Dövlət Dram teatrında böyük canlanma müşahidə olunur. Növbəti mövsüməqədərki dövr üçün tamaşaçıların maraq və diqqəti əsasında repertuar bir daha nəzərdən keçirilir.

Ümumilikdə repertuarı zəngin olan teatrın planı tərtib edilərkən hər zaman uşaq və yeniyetmələr də nəzərə alınır. Bu işdə milli əsərlərlə yanaşı, müxtəlif dünya şöhrətli yazıçılara da müraciət olunur. Artıq vaxtilə teatrın repertuarında yer alan maraqlı tamaşalardan biri - Andersenin "Şahzadənin ulduzu" tamaşasına bərpadan sonra daxili baxış keçirilib.

Tamaşanın quruluşçu rejissoru Vasif Məmmədov, tərtibatçısı Nizami Dadaşov, rəqslərə quruluş verən Vüsal Mehrəliyevdir. Rolları Dağlar Rüstəmov, İlqar İbrahimov, İradə Zeynalova, Sevda Hüseynova, Etibar Əmirov, Məryəm Hüseynli və başqaları oynayırlar.

Teatrın direktoru Əməkdar artist Mübariz Həmidov deyir ki, tamaşaların uğurlu keçməsinin kökündə daxili baxışda iştirak edənlərə sərbəstlik verilməsi dayanır: "İctimaiyyət nümayəndələrinin də qatıldığı baxışa gələcəkdə yeniyetmələri də cəlb etməyi nəzərdə tuturuq. Çünki uşaq psixologiyasını onlarla təmas olmadan öyrənmək mümkün deyil".

***A.ƏLİYEV,***
***"Azərbaycan"***

## İndi Lənkəran çayı təkcə bu bölgənin yox, bütün Azərbaycanın brend məhsuludur

# "Hər bir dərdin dərmanı"

***Cənub bölgəsinin mirvarisi Lənkəran tarixi, ənənələri və təbii sərvətləri ilə seçilir. Nələr yoxdur bu diyarda? Qərbdən yaşıl örtüklü dağlar, Şərqdən mavigözlü, bol sərvətli Xəzər dənizi. Dənizlə dağ arasında yaranan subtropik iqlim burada çay, limon, naringi, portağal, feyxoa, kivi, kinkan, çəltik və digər bitkilərin əkilib-becərilməsi üçün münbit şərait yaratmışdır.***



Deyərdik ki, çay onların ən başlıcasıdır, bir növ Lənkəranın vizit kartıdır. Nə qədər şeirlər yazılıb, mahnılar qoşulub çayın şəninə. Ölməz şairimiz Səməd Vurğun vaxtilə demişdir:

***Lənkəranın gülü rəng-rəng,***
***Yurdumuzun qızlarıtək.***
***Dəmlə çayı, tök ver görək,***
***Anamın dilbər gəlini,***
***Yadlara açma əlini.***

Sovetlər zamanında, daha dəqiq desək, 1988-ci ildə Lənkəranda 6 min 877 hektar çay plantasiyası mövcud olmuş, həmin il sahələrdən 16 min 335 ton yaşıl çay yarpağı yığılmışdır. SSRİ süqut etdikdən sonra digər sahələr kimi, çayçılıq da tənəzzülə uğradı. Ayrı-ayrı təsərrüfatlardakı torpaqlar bölünərək kəndlilərə paylanıldı. Pay torpaqlarının üstündəki çay plantasiyaları isə baxımsızlıq üzündən az vaxt ərzində sıradan çıxdı. Kol-kos basmış həmin ərazilər mal-qara üçün örüşə çevrildi. Ardınca yüzlərlə adamın işlədiyi çay fabrikləri sökülüb-dağıdıldı. Beləliklə, çayçılıq az qala tamamilə süqut etmək səviyyəsinə çatdı.

Bu, ölkənin o dövrdəki vəziyyəti ilə bağlı idi. Bir tərəfdən hakimiyyətsizlik üzündən yaranan özbaşınalıq, xaos, hərc-mərclik, digər tərəfdən ermənilərin ölkəmizi işğal etməyə başlaması və digər məlum səbəblər iqtisadiyyatı çökdürmüşdü.

Nə yaxşı ki, belə vəziyyət uzun çəkmədi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin gərgin əməyi, uzaqgörən siyasəti nəticəsində ölkədə sabitlik yarandı. 1994-cü ilin sentyabr ayında bağlanan "Əsrin müqaviləsi" bir müddət keçəndən sonra öz bəhrəsini verməyə başladı. Prezident İlham Əliyev 2004-cü il fevral ayının 11-də Regionların sosial-iqtisadi inkişafı birinci Dövlət Proqramı haqqında fərman imzaladı. Bununla ölkənin hər yerində olduğu kimi, Lənkəranda da dirçəliş dövrü başladı. Neftdən gələn gəlirlərin müəyyən hissəsi kənd təsərrüfatının inkişafına yönəldildi. Regionlarda "Aqrolizinq" və "Aqroservis"lər yaradıldı, Dövlət Aqrar İnkişaf mərkəzləri təsis edildi. Ən başlıcası isə, mülkiyyətçilərə öz pay torpaqlarını əkib-becərmək, heyvandarlığı inkişaf etdirmək üçün subsidiyalar verildi, digər güzəştlər olundu. Xarici ölkələrdən ən müasir texnikalar, avadanlıqlar alınıb gətirildi. Bütün bunlar sahibkarların əlindən tutdu. Torpağını satmaq və ya kiməsə icarəyə vermək istəyən adamların bir qismi fikirlərini dəyişdilər, özləri qollarını çırmayıb işə girişdilər.

Ancaq kəndlilər çay əkməyə ürək etmirdilər. Çünki çayın əkildikdən 7 il sonra bar verməsi onları qorxudurdu. Ona görə də torpaq mülkiyyətçilərinin bir qismi öz pay torpaqlarını rayonda yaranan şirkətlərə icarəyə verərək hər il onlardan icarə haqqı almağı üstün hesab etdilər. İmkanı olanlar isə pay torpaqlarını əkib-becərməyə başladılar.

Hazırda rayon ərazisində üç müəssisə - "BETA", "Azərçay", "Yaşıl çay" firmaları çay əkini və emalı ilə məşğuldur. Keçən ilin sonunadək rayonda 571,8 hektar çay plantasiyası olmuşdur ki, ondan da 355,8 hektarı bar verəndir. 2021-ci ildə 317,2 ton yaşıl çay yarpağı yığılmışdır. Son 3 il rayonda 193 hektar təzə plantasiya salınmışdır. İstehsal olunan yaşıl məhsulun emalı ilə 4 fabrik məşğuldur. Onların hər birində yeni avadanlıqlar quraşdırılmışdır. Çayçılıq sahəsində orta hesabla 800 nəfərdən çox adam çalışır.

Lənkəran çayı keyfiyyətinə və ekoloji cəhətdən təmizliyinə görə istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Üstəlik xarici bazarlarda baha qiymətə satıldığı üçün istehsalçılara yaxşı qazanc verir. Çay ixrac məhsulu kimi həm də ölkəmizə valyuta gətirir. Dediklərimiz aqrar sahəyə, o cümlədən çayçılığın inkişafına dövlət tərəfindən verilən dəstəyin nəticəsidir. 2018-2025-ci illər üçün çayçılığın inkişafı ilə bağlı dövlət proqramının qəbul edilməsi, çay istehsalçılarına 15 milyon manata yaxın kreditlərin verilməsi hədər getməyib.

"Yaşıl çay" MMC Lənkəranın İstisu qəsəbəsinin ərazisindədir. Sovetlər dövründə də burada iri çay plantasiyaları və çay fabriki olmuşdur. MMC-nin rəhbəri Araz Yaqubov əslən bu qəsəbədəndir. Uzun müddət Rusiya Federasiyasında təhsil alıb, işləyib. Azərbaycanda sahibkarlar üçün yaradılan şəraiti görəndə yığışıb öz el-obasına gəlib. İstisu qəsəbəsində bələdiyyə torpaqlarından icarəyə götürüb, plantasiyalar salıb. Qəsəbə əhalisini yaratdığı təsərrüfata işə götürüb.

İndi "Yaşıl çay"ın 150 hektardan çox əkin sahəsi var. Onun 70 hektarı çaydır. 2011-ci ildə saldığı plantasiyalara nümunəvi qulluq göstərdiyindən vaxtından 3 il əvvəl - 2015-ci ildə seçmə üsulla yığıma başlayıb. Fermer çayın keyfiyyətli olması üçün daim fikirləşir, tədbirlər həyata keçirir, mineral gübrələrdən yox, üzvi gübrələrdən daha çox istifadə edir. Sahibkar İstisu qəsəbəsində çay emalı müəssisəsi də yaratmışdır. Yığılan yaşıl çay burada emal olunaraq qablaşdırılır, "Lənkəran çayı" brendi altında ticarət şəbəkələrinə göndərilir. Prezident İlham Əliyev 2017-ci il sentyabrın 2-də Lənkərana səfəri çərçivəsində "Yaşıl çay" MMC və "Astaraçay" MMC-nin bu rayon ərazisindəki təsərrüfatlarında olmuş, həmin müəssisələrin rəhbərləri, eyni zamanda çay plantasiyalarında çalışan qızlarla görüşmüş, ətraflı, səmimi söhbətlər aparmışdır.

Xatırladaq ki, həmin səfər zamanı dövlət başçısının sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi də keçirilmişdir. Tədbirdə kənd təsərrüfatı sahəsində görülən işlərdən, qarşıdakı vəzifələrdən ətraflı danışılmışdır. Ərzaq təhlükəsizliyinin təmin olunması üçün müvafiq dövlət qurumlarının, fermer və torpaq mülkiyyətçilərinin nə kimi işlər görəcəyi müəyyənləşdirilmişdir.

Bu gün həmin müşavirədən 4 ildən çox vaxt keçir. Ötən zamanda çay plantasiyalarının sahəsi genişləndirilmiş, məhsul istehsalı artmışdır. Çayçılıqla bağlı qəbul edilmiş dövlət proqramında 2025-ci ilədək plantasiyaların genişləndirilərək 1500 hektara çatdırılması planlaşdırılmışdır. Nəzərə alsaq ki, hazırda rayon üzrə bu rəqəm 571,8 hektardır, deməli, hələ görüləsi işlər çoxdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır



● Qarabağ Azərbaycandır!



# Dirçələn, yenilənən tarixi şəhər

**2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu tariximizə yeni qəhrəmanlıq salnaməsi yazdı. Xalqın igid övladları Zəfər tarixini əbədiləşdirdi. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı qədim Azərbaycan torpaqları azad edildi. İndi bu ərazilərdə yeni bir dövr başlayıb.**

Artıq işğaldan azad olunan digər ərazilərimiz kimi, Qarabağın göz bəbəyi, Qafqazın incisi Şuşada da yenidənqurma işləri davam edir. Otuz ilə yaxın doğma xalqının həsrətini çəkmiş bu qədim və gözəl şəhər indi tarixinin bərpa, quruculuq dövrünü yaşayır.

Şuşa əzəli və əbədi Azərbaycan şəhəridir. Bünövrəsi 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuş bu şəhəri bütün cəhdlərinə baxmayaraq ermənilər heç zaman özününküləşdirə bilmədilər. Ermənistanın baş naziri Nikol Paşinyanın "Şuşa bədbəxt və qaranlıq şəhər idi" deməsi də bu ögeyliyin, mənəvi bağların olmamasının təzahürüdür. Ermənilərin belə düşünməsinə baxmayaraq Şuşa Azərbaycan xalqı üçün işıqlı məkan, nurlu şəhərdir.

Otuz ilə yaxın davam edən işğal müddətində ermənilər nə qədər çalışsalar da, bu şəhərin doğması olmadılar. Buna səy göstərənlər oldu. Lakin bunu edə bilmədilər, çünki şəhərin öz sahibləri vardı.

## Şuşaya müzəffər xalq kimi daxil olduq

2020-ci ildə Vətən müharibəsindən sonra Şuşanı görən hər bir azərbaycanlının keçirdiyi hissləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində belə ifadə etdi: "Ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb".

Azərbaycanın uzun illər erməni təcavüzkarlarının işğalına məruz qalmış torpaqlarını azad etməsi ilə tarixi ədalət bərpa olundu, haqq yerini tutdu. Zaman-zaman işğalçı simasını göstərən, özgə torpaqlarına göz tikən qəddar ermənilər özləri də bu gün görürlər ki, Qarabağ ərazilərinin əsl sahibi kimdir. Vətəni sevmək həm də onun qədrini, qiymətini bilmək, qorumaq, inkişaf etdirməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarını birində diqqətə çatdırdığı kimi: "44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır".

İşğaldan azad edilən Şuşada böyük işlər həyata keçirilir və bu, Şuşa şəhərinin baş planı əsasında reallaşır. Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur - üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar". Şəhərin baş planı hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlər də nəzərdə tutulub. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq və məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulub. Yaşayış massivində 25 binanın olacağı planlaşdırılıb.

## Nurlu şəhərimiz

1990-cı illərdə işğalçı ermənilər tərəfindən güllələbaran edilmiş Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün büstləri Şuşaya qaytarıldı. Üzeyir bəy Hacıbəylinin abidəsi yenidən qoyuldu. Bülbülün evinin açılışı oldu. Görkəmli şair və siyasi xadim Molla Pənah Vaqifin türbəsi bərpa edildi. 1990-cı illərdə erməni işğalınadək Şuşada keçirilən ənənəvi tədbirlər - "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri yenidən düzənlənməyə başladı. "Qarabağ" hoteli əsaslı təmirdən sonra istifadəyə verildi. Yeni yaşayış kompleksinin təməli qoyuldu. Dövlət başçısı dedi: "Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

Şuşanın bərpası istiqamətində işlər sürətlə davam etdirilir. İlk növbədə, yol çəkildi. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi də bərpa edildi. İndi iki mənbədən Şuşaya su gəlir.

Şuşada tarixi dini-mədəni abidələrimiz bərpa olunur. Üç məsciddə təmir işləri aparılır. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Cənab Prezidentin qeyd etdiyi kimi, Natəvan bulağı bərpa edilib və indi su gəlir: "Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" hoteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı".

Azərbaycanının mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Həyata keçirilən işlər Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyini göstərir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Şuşa ziyalıları

# Sınaqlarla dolu ömür

**1887-ci ildə Şuşada dünyaya göz açan və 1943-cü ildə Rusiyanın şəhərlərindən birində həyatdan köçən Yusif Vəzir Çəmənzəminlini hamı hələ sovet dönəmindən istedadlı yazıçı, mahir qələm ustası kimi tanıyırdı. Çünki geniş ictimaiyyətə çatan onun yalnız kitabları idi. İnsanların bu ziyalının həyat və fəaliyyəti haqqında bildikləri tam deyildi.**



Sovet dövrünün sərt ideoloji rejimi bu şəxsiyyətin ömür salnaməsinin müəyyən səhifələri barədə açıqlamalar verməyi qadağan etmişdi. Əslində isə Y.V.Çəmənzəminli həm də görkəmli ədəbiyyatşünas, tarixçi-etnoqraf, təcrübəli hüquqşünas, bacarıqlı müəllim, peşəkar tərcüməçi, ictimai-siyasi xadim, dövlət adamı idi. Yaşadığı dövrün keşməkeşləri onun da həyatından yan keçməmişdi. Çəmənzəminli bir çox görkəmli həmvətənləri və müasirləri kimi Stalin repressiyalarının qurbanı olmuşdu.

Yusif Mirbaba oğlu Vəzirov Şuşa bəylərindən olan bir ailədə doğulmuşdu. Atasının bəyliyi 1873-cü ildə Şuşa qəza idarəsi tərəfindən təsdiq edilmişdi. Vəzirov soyadı isə XVIII əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın yüksək savada, biliyə malik nüfuzlu, adlı-sanlı vəzirlərindən olan Mirzə Əliməmmədağanın tutduğu vəzifə titulu ilə bağlı olaraq nəsildən-nəslə keçmişdi.

Belə bir nəslə mənsub olan Yusifə hərtərəfli istedadı da irsən keçmişdi. Atası Məşədi Mirbaba bir çox ölkəni gəzmiş, İranda, Orta Asiyada, Türkiyədə olmuş, fars və türk dillərini mükəmməl öyrənmişdi. Ədəbiyyata böyük maraq göstərmiş, Füzulini, Firdovsini çox sevərmiş, xanəndələrə muğamatdan dərs deyərmiş. Cavan vaxtlarında yaxşı dolanışığı, var-dövləti olan Məşədi Mirbaba xeyli keçəndən sonra kasıbçılıqla üzləşmişdi. Ağdamda əttar (dərman və ədviyyat satan) dükanı açmış və bu dükan sayəsində ailəsini dolandırmışdı.

Yusif Vəzir əvvəlcə Şuşada "Kor Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxuyur. Lakin burada təhsilin səviyyəsinin aşağı olduğunu görən atası Yusifi Ağdama gətirir. Ona türk və fars dillərini öyrədir. Lakin ata oğlunun həm də rus dilini bilməsini arzulayırdı. Buna görə Yusif Muradbəylidə oxumaq məcburiyyətində qalır. Bir il rus məktəbində təhsil aldıqdan sonra realnı məktəbə hazırlaşmaq üçün 1896-cı ildə yenidən Şuşaya qayıdır.

O dövrdə Şuşa realnı məktəbi tədris və təchizat baxımından bütün Qafqazın orta məktəbləri sırasında birinci yeri tuturdu. Yusif bu məktəbə daxil olsa da, çox yüksək nəticələr qazana bilmir. Digər tərəfdən Yusif əvvəlcə qardaşını, 19 yaşında olanda isə atasını itirir.

1905-1907-ci illərdə Şuşada baş verən milli ədavət, erməni daşnaklarının təbliğatı ilə törədilən qırğınlar Vəzirovlar ailəsini də ata-baba yurdundan didərgin düşməyə vadar edir. Onlar Aşqabada köçürlər.

Mübahisələr, keşməkeşli hadisələr, çətinliklər, bəzən hətta şər və böhtanlar gənc yaşlarından Yusifin yaradıcılığını da addım-addım, qarabaqara izləmişdir. 1907-ci ildə o, "Şahqulunun xeyir işi" adlı hekayəsini yazır. Bundan sonra 20 yaşlı müəllif "Molla Nəsrəddin" jurnalında Qarabağın pir və ocaqlarını kəskin tənqid edən "Müridi-möhtəşəm" sərlövhəli məqalə ilə çıxış edir. Bu, böyük bir qalmaqala səbəb olur.

## O, heç vaxt siyasətçi olmaq istəməyib

Yeniyetməlik dövründən taleyi Yusif Vəziri şəhərdən-şəhərə atırdı. Bakıda realnı məktəbdə oxumağa ona Hacı Zeynalabdin Tağıyev kömək edir. O, 1909-cu ildə buranı bitirib Sankt-Peterburqa gedir, sənədlərini Mülki Mühəndislər İnstitutuna verir. Bir aydan sonra fikrini dəyişib Daşkəndə üz tutur. Nəhayət, 1910-cu ildə Kiyevə gəlib Müqəddəs Vladimir adına İmperator Universitetinin Hüquq fakültəsinə qəbul olunur.

Yusif Vəzir heç vaxt siyasətçi olmaq istəməyib. Lakin yollar onu bu axara qovuşdurub. Belə ki, 1915-ci ildə universiteti bitirən Y.V.Çəmənzəminli Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunur. Lakin bu, maaşsız vəzifə olduğu üçün iş axtarmağa yenidən Kiyevə dönür. "Müsavat"ın üzvü olan Çəmənzəminli burada azərbaycanlı tələbələri ətrafına toplayaraq Türk Ədəmi Mərkəziyyə firqəsinin - "Müsavat"ın Kiyev şöbəsini yaradır və ora sədr seçilir. Bolşevikləri daim tənqid edən Çəmənzəminli bu dövrdə "Azərbaycanın muxtariyyatı", "Biz kimik və istədiyimiz nədir?" kitablarını yazır, Krımdakı "Millət" qəzetində "Azərbaycan və azərbaycanlılar" məqaləsini çap etdirir.

1918-ci ildə Azərbaycanda Demokratik Cümhuriyyətin yaradılması ərəfəsində çox çətinliklə Bakıya gəlir. 1919-cu ildə Türkiyədə Azərbaycan səfirliyi yaradılır və Çəmənzəminli oraya səfir göndərilir. İstanbulda diplomatik fəaliyyəti ilə yanaşı, Yusif Vəzir ədəbi yaradıcılıqla da məşğul olur, kitablarını nəşr etdirir.

Lakin tezliklə Azərbaycanda sovet hakimiyyəti qurulur və o, öz missiyasını bitmiş hesab edərək könüllü surətdə vəzifədən çıxır. Bir faktı da qeyd edək ki, cümhuriyyətin süqutu Çəmənzəminlinin bütün həyatını alt-üst edir.

Azərbaycanda Yusif Vəzir yazıçı, hüquqşünas və müəllim kimi fəaliyyət göstərir. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültələrində, daha sonra isə pedaqoji, tibb və neft institutlarında Azərbaycan və rus dillərini tədris edir. Qeyd edək ki, Yusif Vəzir 10-a yaxın Şərq və Avropa dillərini mükəmməl bilirdi.

Ümumiyyətlə, 1930-1935-ci illər yazıçının yaradıcılığının qızğın dövrü sayılırdı. O, "Studentlər", "1917-ci il" və s. romanlarını nəşr etdirir. 1935-ci ildə "Həzrəti-Şəhriyar" adlı komediyasını yazıb bitirir. L.Tolstoyun, Turgenevin, Neverovun, Qoqolun, Lavrenevin, Seyfulinanın, Hüqonun əsərlərini rus dilindən azərbaycancaya tərcümə edir.

Çəmənzəminlinin iki romanı - "Qızlar bulağı" (1934) və "Qan içində" (əsl adı "İki od arasında", 1936-1937) əsərləri Azərbaycan ədəbiyyatının roman tarixində öz orijinallığı ilə fərqlənir. Ona görə də ədəbiyyatşünaslar, tədqiqatçılar Yusif Vəzir haqqında söz deyəndə, ilk növbədə, onun roman janrının təşəkkülü və inkişafındakı xidmətlərini yüksək qiymətləndirirlər.

## Odlu illər

Yüksək səviyyədə oxunan, tarixi romanları ilə tanınan, rəğbətlə qarşılanan Yusif Vəzirə münasibət 30-cu illərin ortalarında qəflətən pisləşir. Onu sıxışdırmağa başlayırlar. O dövrdə Stalin repressiyası, "xalq düşmənləri"nin aşkarlanması prosesi bütün Azərbaycan ərazisində həyata keçirilirdi. Yaradıcılıq təşkilatlarında da eyni abhava davam edir, ittifaq üzvləri bir-birinə qarşı qaldırılır, iclas və yığıncaqlarda yaradıcılıq işlərindən çox siyasi mövqe ortaya qoyulurdu.

1937-ci ilin martında Yazıçılar İttifaqının plenumu keçirilir. Burada dörd məsələ müzakirəyə qoyulur: H.Cavidin, M.Müşfiqin, Ə.Cavadın, Y.Vəzirin məsələsi. Üç gün davam edən plenumda Yusif Vəzirin "Studentlər" romanı "kontrrevolyusion" mahiyyətli əsər hesab edilir. Bir müddətdən sonra o, işdən çıxarılır. Eyni zamanda dərs dediyi ali təhsil ocaqlarından uzaqlaşdırılır. Yazıçılar İttifaqının üzvlüyündən azad olunur. Yusif Vəzir 1937-ci ilin aprelində tamamladığı "İki od arasında" romanını işdən çıxarıldığı üçün çap etdirə bilmir.

## Bir müddət ona dəymirlər

1938-ci ildə "Kommunist" qəzetində çıxan bir elan Y.Vəzirin diqqətini cəlb edir. Orada bildirilirdi ki, Özbəkistan SSR-in Urgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dilindən dərs deməyə müəllim yeri tutmaq üçün müsabiqə elan olunur. Yusif Vəzir sənədlərini toplayıb Urgənc şəhərinə göndərir. Müsabiqədən keçib rektorluqdan dəvət alır. 1938-ci ilin avqustunda Urgəncə yola düşür. O, Pedaqoji İnstituta baş müəllim və eyni zamanda təhsil ocağının kitabxanasına müdir təyin olunur.

Bir müddət ona dəymirlər. 1940-cı ildə Çəmənzəminli yenidən yada düşür.

Üstəlik də 1937-1938-ci illərdə Azərbaycanın repressiyaya məruz qalmış bir sıra elm və mədəniyyət xadimlərinin verdikləri ifadələrdə Yusif Vəzirin adı çəkilir. 1940-cı il yanvarın 25-də bu ifadələr əsasında Vəzirov Yusif Mirbaba oğlunun həbs olunması haqqında qərar çıxarılır. Yanvarın 27-də onu Urgəncdə tutub Bakıya gətirirlər. Fevralın 13-də Vəzirovun istintaqına başlanır.

1940-cı il aprelin 16-da ittiham qərarı çıxarılır. İyun ayının 11-də xüsusi müşavirə Vəzirovu antisovet fəaliyyətinə görə 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum edir.

Görkəmli yazıçının, azadlıq mücahidinin ən böyük nigarançılığı övladlarından və həyat yoldaşı Bilqeyis xanımdan idi. Bir də əsərlərinin, əlyazmalarının itib-batacağından, məhv ediləcəyindən qorxurdu. "Bəraət almış yazıçı" adlı əsərini Özbəkistanda tələbəsi ilə birgə yazmışdı. Həmin əsər Azərbaycana gəlib çatır, sonra isə yoxa çıxır. "İki od arasında" romanını və başqa əlyazmalarını qayınanası Kiçikxanım qoruyub saxlayır.

Y.V.Çəmənzəminli 1943-cü il yanvarın 3-də 55 yaşında Nijni-Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində vəfat edir. Ölümündən 13 il sonra 1956-cı ilin fevralında ona bəraət verilir.

Xalqını ürəkdən sevən, onun üçün çalışan, yazıb-yaradan görkəmli Azərbaycan ziyalıları sırasında Y.V.Çəmənzəminlinin xüsusi yeri var. Çox təəssüflər olsun ki, zəmanəsinin bir çox şəxsiyyəti kimi, o da nəinki layiqli qiymətini almamış, hətta sürgünə göndərilmiş, əslində, məhv edilmişdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Səfər təəssüratı

# Xatirəmdə yaşayan Şuşa

**Müharibədən qalib çıxmış xalqın nümayəndəsi kimi 30 il işğal altında olan torpaqlara ayaq basmaq, qoxusunu-ətrini ciyərlərinə var gücünlə çəkmək tamam başqa bir hiss, başqa bir duyğudur. İndi üzərində müzəffər duruşumuzu görən vətən torpağı başqa əhvalda, sevinclə qarşılayır öz sahibini.**

Şuşa Azərbaycan xalqı üçün o qədər müqəddəs şəhərdir ki, hətta orada doğulmayanlar, onu bir dəfə də olsun görməyənlər belə bu gözəl məkana aşiq olur, içində, duyğularında ona bağlanır. Bu baxımdan müqəddəs şəhərə getməyə, onun tarix qoxuyan hər daşına toxunmağa, Cıdır düzünün yamyaşıl çəmənliyində gəzməyə, məscidində dua etməyə, şairlər, bəstəkarlar, xanəndələr yetişdirən havasından udmağa, İsa bulağından içməyə, tarixi küçələrini gəzməyə hər bir azərbaycanlı tələsir və buna can atır. Bu baxımdan mənim də belə bir arzuda olmağım başadüşüləndir.

Bu günlərdə səfərin reallaşacağını eşidəndə sevincimin həddi-hüdudu yox idi.

Şuşaya yaxınlaşanda dan yeri yenicə sökülürdü. Şəhərin üstünü almış xəfif bulud aram-aram çəkilirdi. Bulud çəkildikcə dağların zirvəsi görünürdü. Qəribədir, adama elə gəlirdi ki, Şuşa ona yaxınlaşan hər azərbaycanlını görəndə üzü gülür, buludlardan yaranan qaşqabağını açır.

Qarşımıza ilk çıxan müqəddəs şəhərin qayaları oldu. Daşaltıdan səmaya doğru ucalan sıldırım qayaların məğrur, qürurlu görkəmi insanı heyrətləndirirdi. Necə də öyünməsin, necə də qürurlanmasın?! Təkcə ona görə yox ki, 30 ildən sonra işğaldan azad olunub, həm də ona görə ki, azadlığına gedən yol bu qayalardan keçib. Azərbaycanın mərd, məğrur, qəhrəman oğlanları yüngül silahlarla keçilməz olan bu sıldırım qayaları aşıb şəhərə daxil olmağı bacarıblar. Şəhərə daxil olanda qəhrəman oğullarımızın divarlara yazdıqları yazıları oxumaq zövq verirdi insana. Hər tinində bir igidin imzası, qeydi olan Şuşanın üzü gülürdü. Küçələr təmizlənmiş, böyük quruculuq işlərinə başlanılmışdı.



Yuxarı Gövhər ağa məscidinin qarşısında dayanırıq. Müqəddəs şəhərin müqəddəs məkanında tanrıya əl açaraq dövlətimizə, xalqımıza, şəhidlərimizə, qazilərimizə və ümumilikdə hər bir ölkə vətəndaşı üçün dualar oxuyuruq.

Sonra dadı və ətri ilə məşhur Şuşa çörəyinin bişirildiyi yerə gedirik. Burada bir qeyri-adiliyin olduğunu dərhal hiss edirsən. Sanki şəhər bizi duz-çörəklə qarşılayır.

Sonra Vaqifin məqbərəsinə doğru yön alırıq. Həm günəşi, həm də qarı ilə qonaqlarını qarşılayan məqbərə qələbəmizin rəmzi kimi özünü simvolizə edir.

Daha sonra Cıdır düzünə qalxırıq. İgidlərin at minib, bilək tutub güləşdiyi, hünər göstərib ad qazandığı düzə... Cıdır düzünə qalxar-qalxmaz əsən mehin sərinliyini hiss edirsən. Burnuna dəyən Vətən qoxusu 30 illik həsrəti sona çatdırır.

*Seymur QASIMBƏYLİ,*
*Abşeron*

● Qəhrəmanlıq örnəyi

# Görkəmli sərkərdə Həzi Aslanovun xatirəsi Şuşada və Daşaltıda yad edilib

**Görkəmli sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 112-ci, əbədiyyətə qovuşmasının isə 77-ci ildönümü ilə əlaqədar mədəniyyət paytaxtımız Şuşada və Daşaltı kəndində tədbirlər keçirilib.**



Həzi Aslanov haqqında bir neçə kitabın müəllifi polkovnik Abdulla Qurbaninin layihəsi əsasında təşkil edilən tədbirlərdə əvvəlcə generalın və bütün şəhidlərimizin xatirəsi ehtiramla yad edilib. Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun hərb elminə gətirdiyi yeniliklər xatırlanıb, onun Azərbaycan adını Vətəndən uzaqlarda da hər zaman uca tutduğu qeyd edilib. İstedadlı sərkərdənin tabeliyində olanlara dost, qardaş münasibətləri, yüksək əxlaqi, iradi keyfiyyətləri nümunə kimi göstərilib. Böyük iftixar hissi ilə qeyd edilib ki, bu gün müzəffər Azərbaycan Ordusunun sıralarında Həzi Aslanovun yüzlərlə, minlərlə davamçısı var.

Şuşada və Daşaltıda keçirilən tədbirlərdə çıxış edən Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov, Daşaltı və Şuşa uğrunda döyüşlərin iştirakçılarından mayor Mirzə Mehdiyev, baş leytenant Zakir Gözəlov, leytenant Fərid İmaşlı, gizir Üzeyir Süleymanov və başqaları Həzi Aslanov kimi qəhrəman ata-babalarımızın igidlik nümunələrini Vətən müharibəsi cəbhələrində də təkrarladıqlarını bildiriblər. Cəsur hərbçilər Azərbaycan uğrunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmrlərinə hər an hazır olduqlarını bəyan ediblər.

Dünya hərb tarixində Azərbaycanın qəhrəman oğlu Həzi Aslanovun müstəsna rolu var. Onun qısa, lakin mənalı həyat və şanlı döyüş yolu dünən olduğu kimi, bu gün də hər bir Vətən müdafiəçisi üçün nümunədir, örnəkdir.

Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisi olan Həzi Aslanov xalqımızın hansı yüksək mənəvi xüsusiyyətlərə, qəhrəmanlıq ənənələrinə malik olduğunu bütün dünyaya nümayiş etdirib.

Ümummilli Lider Heydər Əliyev vaxtilə deyib: "Atalarımızın, babalarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır".

Ulu Öndərin ideyalarına həmişə sadiq olan Azərbaycan Ordusunda dahi Heydər Əliyevin bu fikirləri də real təsdiqini tapır, ata-babalarımızın qəhrəmanlıq ənənələri geniş təbliğ edilir.

# Elmi fəaliyyətin vahid mərkəzdən idarə olunması dövrün tələbidir

**Ali Baş Komandan İlham Əliyevin qətiyyət və iradəsi, Ordumuzun qəhrəmanlıq və şücaəti, xalqımızın birlik və müdrikliyi sayəsində Ermənistan separatçılarının işğalından azad olmuş əzəli ərazilərimiz - Qarabağ və Şərqi Zəngəzur indi dirçəliş dövrünü yaşayır. Qısa müddətdə əsas infrastruktur layihələr icra edilmiş, böyük qayıdışın təməli qoyulmuşdur.**

Bu işlərdə diqqətçəkən və xüsusi vurğulanmalı olan əsas məqamlardan biri odur ki, işğaldan azad edilmiş ərazilər təkcə müasir yox, həm də gələcək dövrün tələblərinə uyğun yenidən qurulur. "Ağıllı" şəhər və kəndlər, istehsal və emal müəssisələri məhz gələcəyə hesablanmış layihələrdir. Bu cür layihələrin icrası isə ilk növbədə elmə əsaslanır və o üzdən həmin işlərdə Azərbaycan alimlərinin yaxından iştirakı qaçılmazdır. Ölkəmizinsə kadr və təcrübə sarıdan bunun üçün potensialı kifayət qədərdir. Qalır həmin potensialı hərəkətə gətirməkdən ötrü elmi fəaliyyətin koordinasiya və idarə edilməsi. Elə təqdim etdiyimiz araşdırma məqalə də bu barədədir.

2003-cü ilin əvvəllərində dövlət başçısının fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasına ölkədə elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, respublikadakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən ali dövlət elmi təşkilat statusu verilmişdir. 2016-cı ildə qəbul edilmiş "Elm haqqında" qanunun 11-ci maddəsində də deyilir ki, Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, ölkə üzrə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən qurum (orqan) dövlət ali elmi təşkilatdır. Bu status isə Azərbaycan Respublikası Prezidentinin 21 iyul 2017-ci il tarixli fərmanı ilə AMEA-ya verilmişdir.

Bunlardan əlavə, məlum olduğu kimi, Prezidentin 2009-cu il 4 may tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" təsdiq edilmişdir. Strategiyada elm sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətlərindən biri kimi ölkənin elmi-tədqiqat müəssisələrində həyata keçirilən tədqiqatların vahid mərkəzdən idarə olunması modelinin tətbiqi nəzərdə tutulmuş və həmin səlahiyyətin AMEA-ya verilməsi göstərilmişdir. Bu normativ hüquqi aktlarla Azərbaycanda elmin inkişafını və onun nailiyyətlərinin iqtisadiyyata tətbiq olunmasını təşkil edən vəzifələr AMEA-nın qarşısında qoyulmuşdur. Beləliklə, bu status AMEA-nın mərkəzi idarəetmə orqanına çevrildiyini ehtiva edir və onun mərkəzi icra hakimiyyəti orqanı kimi innovasiyalı iqtisadiyyatın formalaşdırılmasında aparıcı rolunu təsdiqləyir.

Strategiyanın əsas məqsədləri sırasında ölkənin iqtisadi inkişafında elmin rolunun artırılması və bütövlükdə elmin maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi əks edilmişdir. Sənəddə AMEA-nın illik hesabatlarında nazirliklərin, dövlət komitələrinin, şirkətlərin, özəl qurumların və ali təhsil müəssisələrinin elmi fəaliyyətinə aid yekunların təhlil edilməsi və qiymətləndirilməsi də hədəflərdən biri olmuşdur (bölmə 8). Həmçinin elmi tədqiqatların ekspertizasının aparılması və səmərəliliyinin qiymətləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi AMEA-ya həvalə edilmişdir (AMEA-nın Nizamnaməsi, bənd 3.0.19).

Bununla birlikdə strategiyada Azərbaycanda elmin və elmi-texniki fəaliyyətin təşkili və idarə olunmasında ciddi nöqsanların olması vurğulanmış, inkişaf səviyyəsi qənaətbəxş qiymətləndirilməmişdir. Ölkənin elm sahəsində mövcud vəziyyət əks olunan strategiyada göstərilmişdir ki, innovasiya ideyalarının real tətbiq sahələrinə çevrilməsi üçün zəruri olan elmi mühit hələ də müasir dövrün tələblərinə tam cavab vermir. Ümumiyyətlə, bu dövlət sənədində Azərbaycan elmində yaranmış vəziyyətin səbəbləri ətraflı işıqlandırılmış, qarşıya qoyulan məqsədlər, vəzifələr, onların yerinə yetirilməsini təmin edən tədbirlər kompleksi müəyyən edilmişdir. Məsələn, strategiyada elmin maliyyələşdirilməsi mexanizmi kimi fundamental, humanitar və ayrı-ayrı prioritet tətbiqi elmi tədqiqatların dövlət büdcəsindən maliyyələşdirilməsi dövlət sifarişi formasında həyata keçirilməsinin təmin olunması hədəflənmişdir. Dövlət sifarişinin yerinə yetirilməsində isə AMEA-ya daxil olan elmi-tədqiqat institutlarının və müəssisələrinin, habelə dövlət büdcəsindən maliyyələşən digər elmi-tədqiqat müəssisələri və təşkilatlarının iştirak etməsi (bölmə 11) nəzərdə tutulmuşdur.

Burada diqqət yetirilməli məsələ ondan ibarətdir ki, dövlət büdcəsindən maliyyələşməyən dövlət və özəl sektorlara məxsus olan elmi-tədqiqat müəssisələri dövlət sifarişində iştirak edə bilməzlər. İndiki şəraitdə bu normativ müddəanı məqbul hesab etmək olmaz. Söz düşmüşkən: tədbirlər planına görə, 2009-2015-ci illərdə müvafiq mərkəzi idarəetmə orqanları tərəfindən elmin inkişafını təmin edən maliyyələşdirmə sisteminin, yəni dövlət sifarişi əsasında maliyyələşdirmənin tətbiqini təmin etməli idilər. Təəssüflə qeyd edək ki, sənədin icra dövrü ərzində bu sistem nəinki tətbiq olunmadı, heç onun normativ hüquqi bazası da yaradılmadı. Çünki bəzi idarəetmə orqanlarının rəhbərləri dövlət büdcəsindən elmin maliyyələşdirilməsinin indiki formasını dövlət sifarişi kimi başa düşürlər. Əslində isə dövlət sifarişi kimi maliyyələşmə sisteminin mahiyyəti sifarişçi və icraçı arasında konkret mövzu üzrə müqavilələrin bağlanması kommersiya prinsipinə əsaslanır, yəni sifarişin qiyməti tərəflərin razılaşdırılması əsasında müəyyən edilir.

Məlum olduğu kimi, Azərbaycanda təhsil-elm-istehsalat zəncirinin idarə edilməsinin təkmilləşdirilməsi haqqında iki prinsipial konsepsiya mövcuddur. Birinci konsepsiya elmlə təhsilin vahid mərkəzdən idarə edilməsindən (bu məqsədlə Elm və Təhsil Nazirliyi də yaradıla bilər) ibarətdir. İkinci konsepsiya isə Milli Elmlər Akademiyasında islahatların dərinləşdirilməsini və bütünlükdə ölkədə elmi tədqiqatların idarəetmə və koordinasiya sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bu yazının müəllifi ikinci konsepsiyanı dəstəkləyir və hesab edir ki, ölkə başçısının 11 dekabr 2014-cü il tarixli fərmanı ilə təsdiq edilmiş nizamnamə ilə AMEA-nın hüquqları xeyli genişləndirilmişdir. İndi onun hüquqları 30 bənddən ibarətdir. AMEA-ya icazə verilir ki, dövlət və özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə elmin inkişafı ilə bağlı zəruri məlumatlar (sənədlər) barədə sorğu versin və onlardan belə məlumatları (sənədləri) alsın (Nizamnamə, bənd 4.0.2). Lakin AMEA-nın Nizamnaməsində göstərilir ki, ancaq tabeliyindəki elmi müəssisələr və təşkilatlar tərəfindən icrası məcburi olan qərar və sərəncamlar vermək, onların icrasına nəzarət etmək hüququ vardır (bənd 4.0.3). Milli Elmlər Akademiyasının tabeliyində olmayan elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələri ilə elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi üçün tələb edilən hüquqlar onun statusunda nəzərdə tutulmasına baxmayaraq, AMEA-nın mövcud nizamnaməsində əks olunmamışdır. Yəni AMEA-ya tabeliyində olmayan elmi müəssisə və təşkilatlara təsiretmə hüququ verilməmişdir. Akademiya yalnız onların elmi fəaliyyətini təhlil edə, qiymətləndirə, istiqamətləndirə və onlara ancaq tövsiyələr verə bilər (bənd 3.0.20).

Belə bir səlahiyyət məhdudiyyəti isə AMEA-ya "Elm haqqında" qanunla və Prezidentin müvafiq fərmanları ilə müəyyən edilmiş vəzifələri uğurla yerinə yetirmək üçün mane olur. Bu səbəbdən akademiyanın hüquqlarının genişləndirilməsi və ona elmi-tədqiqat işləri üzrə mərkəzi icra hakimiyyəti orqanının hüquqlarının verilməsi məqsədəuyğun olardı.

Əslində digər MDB ölkələrindən fərqli olaraq, Azərbaycanda AMEA-ya faktiki məhz mərkəzi dövlət idarəetmə orqanı statusu verilmişdir. AMEA-nın dövlət başçısı tərəfindən təstiq olunmuş Nizamnaməsində göstərilir ki, akademiya elmi-tədqiqat müəssisələrində aparılan tədqiqatların vahid mərkəzdən idarə olunmasını təmin etməlidir (bənd 3.0.19). Bununla belə, bu Nizamnamə çərçivəsində AMEA-ya elə bir hüquq verilməlidir ki, o, ölkə üzrə elmi-tədqiqat işlərinin vahid mərkəzdən idarə edilməsini həyata keçirə bilsin. Əvvəla, onun qəbul etdiyi qərarların müvafiq icra hakimiyyəti orqanları, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün elmi müəssisə və təşkilatları tərəfindən vaxtında yerinə yetirilməsi məcburi sayılsın. İkincisi, ölkə üzrə elmi-tədqiqat işlərinin dövlət sifarişi əsasında yerinə yetirilməsinin təşkili və idarə edilməsi AMEA-ya həvalə olunsun. Üçüncüsü, dövlət büdcəsindən maliyyələşdirilən elmi-tədqiqat işləri dövlət sifarişi kimi hökumətin qərarı ilə rəsmləşdirilsin.

Digər mühüm məsələ AMEA-nın idarəetmə strukturu ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev 2003-cü ildə Milli Elmlər Akademiyasının prezidentini qəbul edərkən demişdir: "Hər bir ölkə özü müəyyən edir ki, ona akademiya lazımdır, yoxsa lazım deyil. Əgər lazımdırsa bu, hansı strukturda lazımdır. Bu struktur da ölkənin tələbatına uyğun olmalıdır" ("Azərbaycan" qəzeti, 03.01.2003).

Hazırda akademiyanın rəyasət heyəti onun vəzifələrinin icrasını təmin edən kollegial icra orqanıdır və akademiyanın prezidentindən, vitse-prezidentlərindən, akademik katibindən, elmi bölmələrin akademik katiblərindən, regional elmi bölmələrin sədrlərindən və akademiyanın digər həqiqi üzvlərindən ibarətdir (Nizamnamə, bənd 8.1-8.2). Akademiyanın təşkilati-idarəetmə strukturu çoxpilləlidir: akademiyanın yığıncağı, rəyasət heyəti, elmin sahələri üzrə bölmələr, bölmələrin ümumi yığıncağı, bölmələrin bürosu, institutlar.

İndiki şəraitdə isə bu cür çoxpilləli idarəetmə sistemi operativliyi və məsuliyyət bölgüsünün konkretliliyini təmin etmir, qərarların qəbulunu ləngidir, institutların müstəqilliyini məhdudlaşdırır və s. Bu səbəbdən akademiyanın idarəetmə sisteminin və strukturunun onun qarşısına qoyulan vəzifələrə və bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması zəruridir. İlk növbədə onun rəyasət heyətinin tərkibi yeni qayda ilə müəyyən edilməlidir. Onun tərkibinə elmi-tədqiqat qurumları olan mərkəzi idarəetmə orqanlarının və iri şirkətlərin nümayəndələri, tutduqları vəzifəyə görə AMEA-nın institutlarının rəhbərləri, habelə əsas ali təhsil müəssisələri və sahə elmi-tədqiqat institutlarının rəhbərləri səsvermə hüququ ilə daxil olunmalıdır. Rəyasət heyəti ümumi yığıncaqlararası dövrdə akademiyanın yeni hazırlanmış əsasnaməsi ilə müəyyən olunan səlahiyyətlər daxilində idarəetmə funksiyasını həyata keçirməlidir. Rəyasət heyətinin say və fərdi tərkibi isə akademiyanın təklifi əsasında Nazirlər Kabineti tərəfindən təsdiq edilsə daha düzgün olar. Bu yerdə qeyd edək ki, rəyasət heyətinin tərkibinin genişləndirilməsi elmi-tədqiqatların və elmi-texniki məhsulların praktikada istifadəsində mühüm addım olardı.

Akademiya sistemində əsas vəzifəsi ölkə üzrə elmi və elmi-texniki məhsullar üçün bazarın axtarışı və satışının təşkil edilməsi olan güclü vahid marketinq xidməti də yaradılmalıdır. Müəyyən hədd daxilində bu fəaliyyət kommersiya xarakteri də daşıya bilər. Eyni zamanda ölkənin digər idarəetmə orqanlarının tərkibinə daxil olan dövlət və özəl elmi-tədqiqat, eləcə də ali təhsil müəssisələri ilə AMEA-nın qarşılıqlı fəaliyyətini tənzimləyən dəqiq və konkret mexanizmlər müəyyənləşdirilməlidir.

Təəssüf doğuran faktdır ki, Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının (ETƏŞ) AMEA ilə qarşılıqlı əlaqəsi həmin qurumların heç birinin nizamnaməsində və əsasnaməsində öz əksini tapmamışdır. Ona görə də AMEA ilə adıçəkilən şuranın qarşılıqlı münasibətlərinə diqqət yetirmək mühüm əhəmiyyət kəsb edir. Əvvəllər şura AMEA tərəfindən yaradılırdı və onun rəhbərliyi altında fəaliyyət göstərirdi. AMEA-nın prezidenti eyni zamanda şuranın sədri funksiyasını icra edirdi. İndi "Elm haqqında" qanuna görə, onun fəaliyyəti Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Şuranın 15 nəfərdən ibarət tərkibi (sədr, məsul katib daxil olmaqla) də Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Bu isə o deməkdir ki, mövcud normativ sənədlərə görə, hər iki qurum - həm AMEA, həm də ETƏŞ müstəqil fəaliyyət göstərir. Onların qarşılıqlı fəaliyyətini tənzimləyən mexanizm isə yoxdur, baxmayaraq ki, onların qarşısına çox vaxt eyni vəzifələr qoyulur. AMEA-nın dövlət başçısı tərəfindən 2014-cü ildə təsdiq edilmiş Nizamnaməsində göstərilir ki, akademiyanın vəzifəsi Azərbaycanda elm sahələrinin prioritet istiqamətlər üzrə inkişafını təmin etməkdən, fundamental, eksperimental və tətbiqi elmi-tədqiqatların təşkilini, əlaqələndirilməsini, təşkilati hüquqi və mülkiyyət formasından asılı olmayaraq, elmi-tədqiqat müəssisələrinin elmi fəaliyyətini təhlil etməkdən, istiqamətləndirilməsini, qiymətləndirilməsini və inkişafını təmin etməkdən, onların ayrı-ayrı sahələrə tətbiqində iştirak etməkdən, elmlə istehsalın qarşılıqlı əlaqələrini təşkil etməkdən, ölkənin elmi-texniki inkişafının kompleks proqnozlarını işləyib hazırlamaqdan ibarətdir. ETƏŞ-in əsasnaməsində isə bildirilir ki, şura ölkədə aparılan elmi tədqiqat işlərini əlaqələndirir, fundamental və tətbiqi tədqiqatların həyata keçirilməsinə nəzarəti və onların nəticələrinin səmərəliliyinin yüksəldilməsini təmin edir (bənd 2). Ümumiyyətlə, hökumət tərəfindən şuranın qarşısına 14 bənddən ibarət vəzifə qoyulmuşdur. Onun hüquqları elmi müəssisə və təşkilatların elmi-tədqiqat işlərini ölkənin aktual problemlərinə istiqamətləndirməkdən, hesabatları və məruzələri dinləməkdən, müvafiq qərarlar qəbul etməkdən, elmi ideyaları innovasiya və sahibkarlıq sahələrinə istiqamətləndirməkdən və zəruri məlumatlar almaqdan ibarətdir. Burada bir sualın cavabı yoxdur: şuranın qərarlarının AMEA-nın institutları, ali təhsil müəssisələri və digər elmi təşkilatlar tərəfindən yerinə yetirilməsi məcburidir, yoxsa könüllü? Başqa sözlə, əsasnamədə şuraya icrası məcburi olan qərarlar qəbul etmək hüququ verilməmişdir.

ETƏŞ-in vəzifələrindən biri də fundamental və tətbiqi tədqiqatların yerinə yetirilməsinə nəzarət etməkdir (Əsasnamə, bənd 2.1.3). Bu isə "Elm haqqında"qanunla qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək üçün yetərincə deyil. Şuranın əsasnaməsində göstərilir ki, ETƏŞ ictimai əsaslarla fəaliyyət göstərir. İqtisad elmi üzrə uzun müddət şuranın üzvü kimi hesab edirəm ki, ETƏŞ-in qarşısına qoyulan mühüm funksiyaları ictimai əsaslarla yerinə yetirmək mümkün deyil. Düşünürük ki, elmin inkişafına dair qeyd etdiyimiz sənədlərdə nəzərdə tutulan və AMEA-nın qarşısına qoyulan vəzifələrin vaxtında və lazımi səviyyədə icrasını təmin etmək üçün ETƏŞ-in əvəzinə AMEA-nın struktur bölməsi kimi Əlaqələndirmə Departamentinin yaradılması düzgün olardı. Ölkə üzrə elmi-tədqiqat işləri planlarının müvafiq elmi mərkəzlərlə birlikdə (mülkiyyət formasından asılı olmayaraq) razılaşdırma əsasında hazırlanması bu quruma həvalə edilməli, onun qəbul etdiyi təkliflər AMEA-nın qərarlarından sonra nazirliklər, elmi-tədqiqat və təhsil müəssisələri üçün icrası məcburi hesab olunmalıdır.

***Tofiq HÜSEYNOV,***
***AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri,***
***iqtisad elmləri doktoru, professor,***
***Əməkdar iqtisadçı***

# Azərbaycanda "Omikron" ştamı sürətlə yayılır

*Əvvəli 1-ci səh.*




Səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan beş ay sonra "buster" doza ilə peyvəndlənməyə çağırır".

## Arxayınlıq yaranıb ki, bu da çox təhlükəlidir

Mərkəzin baş infeksionisti Fərrux Sədirov mövcud durumla bağlı ictimaiyyətə müraciət edərək bildirib ki, son zamanlar bəzi insanlarda arxayınlıq yaranıb ki, bu da çox təhlükəlidir.

Mərkəzin baş infeksionisti bildirib: "İki doza peyvənd olunanlar arxayınlaşmasınlar, çünki peyvənddən 5 ay sonra immunitet zəifləməyə və virusu unutmağa başlayır. Buster (üçüncü) dozaya isə həm gücləndirici, həm də xatırlatma dozası deyə bilərik. Çünki buster doza qəbul olunanda bədən virusu xatırlayır və ona qarşı dayanıqlı hala gəlir".

Fərrux Sədirov diqqətə çatdırıb ki, aparılan tədqiqatların nəticələrinə görə, "Omikron"a qarşı iki doza vaksin 25 faiz qoruma yarada bilirsə, üçüncü dozadan sonra bu rəqəm 70 faizin üzərinə çıxır: "Omikron"dan qorunmanın əsas çıxış yolu peyvəndlənmə olaraq qalır. Buster dozanı qəbul etmək və əsas qaydalara əməl etməklə həm özünüzü, həm də ailənizi qoruya bilərsiniz".

## Pandemiya ilə mübarizədə COVID-19 dərmanlarının hazırlanmasına diqqət yetirilməlidir

Yaponiyanın Kyoto Tibb Universitetinin tədqiqatçıları Uhanda yayılan koronavirusun ilk ştamı ilə onun digər ştamları arasındakı fərqləri araşdırıblar. Məlum olub ki, virusun "Alpha", "Beta", "Delta" və "Omikron" ştamları plastik səthlərdə və dəridə "Uhan" ştamından daha çox yaşaya bilirlər.

Tədqiqatda "Uhan" ştamının plastik səthlərdə orta ömrü 56, "Alpha" variantının 191,3, "Beta" variantının 156,6, "Delta" variantının 114, "Omikron" variantının isə 193,5 saat olub.

İnsan dərisində isə "Uhan" ştamı 8,6 saat, "Alpha" ştamı 19,6, "Beta" ştamı 19,6, "Delta" ştamı 16,8, "Omikron" ştamı isə 21,1 saat mövcudluğunu qoruyub saxlayıb.

Tədqiqatçılar həmçinin müəyyən ediblər ki, "Alpha", "Beta", "Delta" və "Omikron" ştamları spirtə qarşı bir qədər müqavimət göstərsələr də, 35 faizlik spirt məhlulu ilə təmasda olduqdan sonra bütün ştamlar 15 saniyədən sonra tamamilə təsirsiz hala gəlib.

Rusiyalı infeksionist, tibb elmləri namizədi Andrey Pozdnyakov artıq yüksək temperaturun "Omikron"a yoluxanların ancaq yarısında müşahidə edidiyini açıqlayıb.

Mütəxəssis bu ştamda qızdırma əsas simptomlardan biri olaraq qalsa da, artıq daha az yoluxanlarda göründüyünü diqqətə çatdırıb.

Andrey Pozdnyakov onu da nəzərə çatdırıb ki, "Omikron"a yoluxmuş xəstələr əzələ ağrısı, iştahsızlıq və anosmiya (qoxu və dadın itirilməsi) kimi simptomlardan daha az şikayət etməyə başlayıblar. İnfeksionist deyib: "Yəni, əvvəlki ştamlar üçün xarakterik olan şey, ilk növbədə, anosmiya "Omikron"da olduqca nadirdir. "Delta" ilə müqayisədə, anosmiyalı insanların sayı səkkiz dəfə azalıb". Andrey Pozdnyakov virusun kollektiv immun reaksiyasının hücumundan yayındığını və getdikcə daha çox adi respirator infeksiyaya çevrildiyini diqqətə çatdırıb: "Bir virus üçün bu, məcburi bir tədbirdir".

Başqa bir rusiyalı mütəxəssis, virusologiya professoru Aleksandr Çepurnov isə vurğulayıb ki, koronavirus pandemiyası ilə mübarizədə COVID-19 dərmanlarının hazırlanmasına diqqət yetirilməlidir. Virusoloq deyib: "Peyvəndləmə sahəsində baş verənlərə əsaslansaq qeyd edirəm ki, peyvəndlər steril immunitet yaratmır, insanlar yenə də xəstələnirlər. Terapevtik dərmanların yaranmasının əhəmiyyəti daha aydın görünür. Yeni ştamlar onsuz da qaçılmazdır və onların müalicəsinə ehtiyac olacaq".

Bütün dünyada ümidlə yeni növ koronavirusun sonunun gələcəyi gözləndiyi bir vaxtda, təəssüf ki, ürəkaçan xəbərlər yayılmır. Çinin Vuhan Universitetinin alimləri müəyyən ediblər ki, bu yaxınlarda Cənubi Afrikada kəşf edilən "NeoCov" yarasa koronavirusu COVID-19 kimi insan hüceyrələrinə daxil ola bilir.

Tədqiqatçılar bidliriblər ki, əgər virus insanlara keçərsə, o zaman bütün bəşəriyyət üçün növbəti təhlükəyə çevriləcək.

Alimlər diqqətə çatdırıblar ki, insanlarla vəhşi heyvanlar arasında təmaslar əgər tez-tez baş verərsə, koronaviruslarla əlaqəli yeni pandemiyalar daha çox ola bilər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ağstafada sanitar-karantin qaydalarını pozan şəxslər məsuliyyətə cəlb edilmişlər






Koronavirus infeksiyasının kütləvi yayılmasının qarşısının alınması, taksi və avtobuslarda sürücülərin COVID-19 pasportunun olub-olmaması, tibbi maskalardan istifadə, eləcə də sosial məsafənin qorunması qaydalarına əməl olunmasını yoxlamaq məqsədilə Ağstafa Rayon Polis Şöbəsinin əməkdaşları reydlər keçirmişlər.

Keçirilən reydlər zamanı sürücü və sərnişinlərə sosial məsafənin gözlənilməsi, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadənin vacibliyi və düzgün istifadənin zəruriliyi barədə tövsiyələr verilməklə yanaşı, bu qaydalara əməl etməyən şəxslər barəsində inzibati tənbeh tədbirləri görülmüşdür.

Daha sonra reydlər rayon ərazisindəki market və digər xidmət obyektlərində, eləcə də əhalinin sıx olduğu yerlərdə davam etdirilmişdir. Polis əməkdaşları tənəffüs yollarını qoruyan fərdi qoruyucu vasitələrdən istifadə etməyən 10-a yaxın şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda COVID-19 əleyhinə 35 minə yaxın peyvənd vurulub

Yanvarın 29-da Azərbaycanda 34 min 546 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 2945, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 1889, "buster" doza ilə peyvənd olunanların sayı isə 29 min 712 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 11 milyon 971 min 021, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 228 min 014, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 740 min 859 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 2 milyon 002 min 148 nəfər təşkil edir.

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 4268 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 4268 yoluxma faktı qeydə alınıb, 1486 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 651 min 341 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 622 min 672 nəfər müalicə olunaraq sağalıb, 8700 nəfər vəfat edib. Aktiv xəstə sayı 19 min 969 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 min 091, dünənə qədər isə ümumilikdə 6 milyon 134 min 952 test icra olunub.



**Dünya olduğu kimi**

# Leonardo da Vinçidən başlayan tarix

**İlk avtomobil cizgiləri Leonardo da Vinçiyə aid edilir. 1447-ci ildə o, əzələ gücü ilə hərəkətə gətirilə bilən zirehli arabanın layihəsini işləyir.**



İlk real avtomobilin peyda olması isə təxminən 120 il əvvəl baş verib. Avtomobillərin hazırlanması üçün ilk olaraq, buxar mühərrikli qurğular ixtira etməyə başlayıblar. İlk buxar mühərrikli qurğular hələ XVII əsrdə meydana çıxmağa başlasa da, onlar yavaş hərəkət edir, güclü səs çıxarır, həmçinin çoxlu tüstü buraxırdı.

1769-cu ildə fransız Nikola-Jozef Kyunyo özünün "buxar arabası" adlanan ixtirasını təqdim etdi. Ölçüsü 60 santimetr olan "araba" buxarla işləyirdi. Onun maksimal sürəti saatda 3,6 kilometr, yanacaq ehtiyatı isə cəmi 15 dəqiqəlik hərəkət üçün bəs edəcək qədər idi. Bu qurğunun topları daşımaq üçün vasitə kimi istifadə olunması nəzərdə tutulsa da, o, özünü doğrulda bilmədi. Ancaq buna baxmayaraq, onun bu arabası nəinki avtomobilin, hətta parovozun əcdadı hesab olunur.

Bir neçə ildən sonra İngiltərə və Almaniyada da buxar arabaları meydana gəldi. Buxar mühərriki ilə işləyən avtomobillər ağırlığına və istifadə üçün rahat olmadığına görə geniş tətbiq edilmədi.

1791-ci ildə rusiyalı ixtiraçı İvan Kulibin buxar mühərriki və pedalla təchiz olunmuş fayton hazırladı. Bu qurğu, həmçinin sürət qutusu, podşipnik, tormoz, nazimçarx və üç təkərə malik idi. Lakin onun ixtirası hökumət tərəfindən dəstəklənmədi.

XVIII əsrin 90-cı illərinin sonlarında amerikalı tədqiqatçı Evans "Oraktur Amfibilos" adlı buxar arabası hazırladı. Onun arabası həm quruda, həm də suda hərəkət etməyə imkan verirdi. Bu kəşfə dünyada ilk dəfə olaraq avtomobil üçün patent verilib.

Avtomobillərin inkişafına buxar mühərriki ilə nail olunmayacağını anlayan alimlər öz qüvvələrini elektrik enerjisi ilə işləyən mühərriklərin inkişafına yönəltdilər. XIX əsrin əvvəllərində yığcam və güclü daxili yanma mühərriklərinin yaranması ilə avtomobilqayırmanın inkişafı üçün geniş imkanlar açıldı. Macar ixtiraçı Yedlik Anoş 1828-ci ildə dünyada ilk dəfə olaraq özünün miniatür avtomobil modeli üçün elektrik mühərriki ixtira etdi.

1900-cu ildə artıq həm buxar, həm elektrik, həm də benzinlə işləyən avtomobil var idi. 1920-ci ilə qədər davam edən bu rəqabətdən benzinlə işləyən avtomobillər qalib çıxdılar. Benzinin neftdən asan əldə edilməsi və qiymətinin ucuz olması benzinlə işləyən avtomobillərə üstünlüyün verilməsinə gətirib çıxardı.

## Qızının şərəfinə maşın markasını "Mercedes" adlandırdı



"Benz" avtomobil şirkətinin əsası 1883-cü ilin dekabr ayında qoyulub. Şirkət üç il sonra ilk 4 təkərli avtomobillərin istehsalına başlayır. 1901-ci ilin baharında şirkət Avstriya-Macarıstanın vitse-səfiri və Avropanın məşhur sahibkarı Emil Jelinekdən sifariş qəbul edir. Çox keçmədən avtomobil hazır olur və "Emile Jelinek-Mercedes" adını alır. Beləliklə də, sahibkarın qızının şərəfinə adlandırılan və dünyaca məşhur olan "Mercedes" avtomobil markası meydana gəlir. 1902-ci ildə "Mercedes" adı ticarət markası kimi qeydiyyata alınır.

Daymlerin və benzin zavodlarının birləşməsindən sonra XX əsrin 20-ci illərində istehsal olunan yeni avtomobillər "Mercedes-Benz" adlanmağa başlanır. "Mercedes-Benz" markalı maşınlar hər zaman nüfuzlu, etibarlı və keyfiyyətli avtomobillər sayılıb. Hazırda "Mercedes-Benz" şirkəti dünyanın aparıcı avtomobil istehsalçılarından biridir.

Sonradan ABŞ, İngiltərə və Fransada müasir avtomobillərin prototipləri yaradılır. Bunlar "Ford", "Rolls-Royce", "Peugeot", "Bentley" kimi dünyaca məşhur olan avtomobil markalarıdır.

## İlk hibrid avtomobil 100 il əvvəl yaranıb

**Nə qədər qəribə görünsə də, enerji mənbəyindən istifadə edən hibrid avtomobil əslində yeni bir ixtiranın nəticəsi deyil.**



Onun tarixi XX əsrin əvvəllərinə aiddir. İki enerji mənbəyi ilə təchiz edilmiş ilk hibrid avtomobil 100 il əvvəl yaradılıb. Ən çox yayılmış hibrid transmissiyası özündə benzin və elektrik mühərriklərini birləşdirir. Bu tip nəqliyyat vasitələrinə hibrid elektromobillər deyilir.

İlk hibrid avtomobil 1899-cu ildə Ferdinand Porşe tərəfindən hazırlanıb. Bu elektromobil 1901-ci ildə Paris avtosalonunda ictimaiyyət tərəfindən yaxşı qarşılanıb. Olduqca qısa müddətdə satışa çıxarılan hibrid avtomobillər bahalı idi və zəif satılırdı. Buna görə də hibrid avtomobillər uzun zaman keçmişin səhifələrində qalır.

1950-ci illərdən başlayaraq, hibrid avtomobillər texnoloji inkişaf yoluna davam etdilər. 1960-cı ildə ABŞ hökuməti kütlələri hibrid avtomobillərə keçməyə təşviq etməyə çalışdı. 1968-ci ildə TRW şirkətinin mühəndisləri bu gün müasir maşınlarda istifadə edilən ilk tamhüquqlu hibrid ötürücü sistemi yaratdılar. 1973-cü ildə Almaniyanın "Volkswagen" şirkəti hibrid avtomobil - "Volkswagen Taxi Hybrid" avtomobilini ictimaiyyətə təqdim etdi. Sonrakı 25 il ərzində avtomobil istehsalçıları hibrid texnologiyalarını araşdırmaq və inkişaf etdirmək üçün milyardlarla dollar xərclədilər, lakin buna baxmayaraq, qiymət və istehsal baxımından benzinlə sərbəst rəqabət edə biləcək hibrid nəqliyyat vasitələri çox az hazırlandı.

1970-ci illərdən sonra avtomobil istehsalçıları daha qənaətli yanacaq istehlakı sistemləri yaratmaq üçün fəal işləməyə başladılar. Son illərin ən uğurlu və gəlirli hibrid avtomobilləri arasında "Nissan Leaf" və "Chevrolet Volt" da var. "Nissan Leaf" ən ucuz hibrid modellərdən biridir.

## Ən böyük gəmilər



**Bu gün bəzi gəmilər o qədər böyükdülər ki, onlar kanal və boğazlardan keçə bilmir. Hətta bəzi dünya limanlarında onlara giriş qadağan edilib.**

Bəşər tarixində ən böyük səyahət gəmisi bir müddət öncə Fransanın Saint-Nazaire gəmiqayırma zavodunda istehsal olunub. Bu səyahət gəmisinə "Dənizlərin harmoniyası" (Harmony of the Seas) adı verilib.

Gəminin inşası 1 milyard ABŞ dollarına başa gəlib və ümumilikdə 6,3 min nəfər sərnişin daşımaq qabiliyyətinə malikdir. Ümumi uzunluğu 362 metr olan layner 16 göyərtədən ibarətdir. Laynerin çəkisi 120 min ton, eni 66 metr, ekipajı isə 2,1 min nəfərdir.

Yer kürəsinin ən uzun gəmisinin uzunluğu 488 metr olub. Bu gəminin eni 74 metr, çəkisi 600 000 ton olub. Gəmi 2013-cü ildə suya buraxılıb.

Dünyada mayeləşdirilmiş təbii qazla (LNG) işləyən ən böyük konteyner yük gəmisi Fransada istismara verilib. 23 min konteyner daşıyan gəmi Fransanın iri gəmiçilik və logistika şirkəti olan "CMA CGM"in sifarişi əsasında hazırlanıb. Şirkətin təsisçisi Jak Saadenin adı verilən gəminin uzunluğu 400, eni sə 61 metrdir. Gəmi Çinin Dövlət Gəmiqayırma Müəssisəsinin Şanxaydakı "Shanghai Jiangnan-Changxing Shipyard" tərsanəsində inşa edilib.



## Dünyanın ən uzun dəmir yolu

**Britaniyanın "The Times" qəzetinin yaydığı məlumata görə, dünyanın ən uzun dəmir yolu marşrutu Portuqaliyadan Sinqapura qatarla getməyi mümkün edir.**

18,75 min km-lik ən uzun dəmir yolu marşrutunu qət etmək üçün təxminən üç həftə vaxt lazımdır. Laosda dəmir yolunun çatışmayan hissəsinin tikintisi "Bir kəmər-bir yol" təşəbbüsünün həyata keçirilməsi çərçivəsində Çin tərəfindən həyata keçirilib. Beş il ərzində həyata keçirilən layihənin dəyəri 6 milyard ABŞ dollarını təşkil edib.

Avropanın ən qərb ölkəsindən hərəkətə başlayan bu səyahət Cənub-Şərqi Asiyada bitir.

## Ən böyük təyyarə



Dünyanın ən böyük təyyarəsi "Antonov An-225-Mriya"dır. Təyyarənin uzunluğu 84 metr, hündürlüyü 18,1 metr, qanadlarının ucları arasındakı məsafə 88,4 metrdir. Yük kabinəsinin eni 6,4, hündürlüyü 4,4, uzunluğu isə 43 metrdir. Təyyarə 250 tonadək yük qaldıra bilir.

Təyyarə 1984-1988-ci illərdə Ukrayna SSR-də "Antonov" konstruktor bürosu tərəfindən Kiyev Mexaniki Zavodunda istehsal edilib. Təyyarənin ilk uçuşu 1988-ci il dekabrın 21-də baş tutub. Əsas məqsəd böyük raketlərin, kosmik gəmilərin daşınması olub. Təyyarə 2001-ci ildən kommersiya xidmətindədir. Ukrayna dünyanın ən böyük təyyarəsini Çin Hava Yollarına satıb.

## Dünyanın fərqli metroları

**Dünyada ən qədim metro sistemi Londondadır. Burada metronun ilk stansiyası 1863-cü ildə açılıb. Paris metrosu da öz əzəməti ilə öyünə bilər. Bu metroda 14 xətt, 245 stansiya var. Paris metrosunda diqqəti çəkən cəhət vaqonların avtomatik olaraq yox, qatar dayanandan sonra əllə açılmasıdır.**



Honqkonq metrosu dünyanın ən rahat və gözəl metrolarındandır. 150 stansiyası olan Honkonq metrosu meqapolisin demək olar ki, mərkəzindən tutmuş ətraf qəsəbələrinə qədər olan bütün hissələrini birləşdirir. Metro stansiyalarında bank bölmələri, ayaqüstü yemək üçün kafelər, dükanlar var.

Sinqapur metrosu təmiz havasına görə fərqlənir. Maraqlıdır ki, sinqapurlular çox vaxt metro stansiyalarına sırf təmiz hava almaq, şəhərdəki dözülməz istilərdən qurtulmaq üçün daxil olurlar.

Madrid metrosunu da dünyanın inkişaf etmiş metrolarından saymaq olar. Burada metro stansiyalarındakı eskalatorların ümumi sayı 1600-dən çoxdur ki, bu baxımdan o, dünyada birincidir. Ən sıx yeraltı dəmiryolu xətti olan Madrid metrosu təmizliyi ilə seçilir.

Moskva metrosu dünyanın ən böyük və ən sürətli metrosudur. Burada qatarların sürəti saatda 120 kilometrə çatır. Moskva metrosu hər il 3,2 milyard sərnişin daşıyır.

Tokio metrosu dünyada ən müasir yeraltı nəqliyyat sisteminə malikdir. Onun infrastrukturuna hətta ticarət mərkəzləri və müxtəlif servislər də daxildir.

Nyu York metrosu nə təmizliyi, nə də qatarların hərəkət tezliyi ilə fərqlənir. Bununla belə yalnız Nyu Yorkda metro bütün sutka ərzində işləyir. 1904-cü ilin oktyabrında metropolitenin cəmi 28 stansiyası olub, indi isə onların sayı 462-dir.

Braziliyanın San-Paulo metropoliteni bu ölkədə tikilən ilk yeraltı dəmiryoludur. Bütün xətlərin uzunluğu 350 km, sərnişin axını isə sutkada 3,7 milyon nəfərdir. Braziliyanın nəqliyyat sistemi dünyanın ən təmiz və təhlükəsiz nəqliyyat sistemlərindən biri hesab olunur.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

**Sağlıq olsun**

# Zəhərli nəfəs

**Havanın çirklənməsi canlıların sağlamlığına mənfi təsir göstərən, onların həyatına və ekoloji tarazlığa zərər verən ciddi problemdir.**



Havanın çirklənməsinin ən mühüm səbəblərindən biri isə avtobus, yük maşını, mikroavtobus kimi dizel yanacağı istifadə edən ağır nəqliyyat vasitələrinin buraxdığı işlənmiş qazlardır. Belə ki, nəqliyyat vasitələri yolda hərəkət edərkən işlənmiş qazlar vasitəsilə havaya karbonmonoksid, karbon qazı, azot oksidi, digər karbohidrogen qazları və qurğuşun kimi ağır metallar buraxırlar. Mütəxəssislər həmin qazların başda ağciyər və tənəffüs orqanları olmaqla bütün daxili orqanlara təsir etdiyi və ölümcül nəticələrə gətirib çıxardığı barədə xəbərdarlıq edirlər.

### *Ölümə yol açan təhlükə*

Türkiyənin Erdem Xəstəxanasının sinə xəstəlikləri mütəxəssisi Doktor Mehmet Levent Safali məlumat verir ki, son dərəcə təhlükəli karbonmonoksid qazı rəngsiz və qoxusuz olsa da, öldürücü xüsusiyyətlərə malikdir. İşlənmiş qazlarda da rast gəlinən boğucu karbonmonoksid qazı qanda oksigenin bağlandığı yerlərə nüfuz edərək hiperkapniya (bədəndə artıq karbon dioksid ($CO_2$) yığılması), əsəb pozğunluqları və hətta ölümə yol açan zədələrə səbəb ola bilir. Həmçinin "karbonmonoksid zəhərlənməsi" ilə tənəffüs sisteminə ziyan vurur.

Həkim deyir ki, havaya buraxılan qazın tərkibindəki azot oksidi qazı ağciyərlərə qalıcı ziyan vuraraq ağciyər xərçənginə, habelə ölümə səbəb ola bilər.

Qan, sümük və sinir sistemlərini zədələyən qurğuşun kimi kanserogen xüsusiyyətlərə malik digər karbohidrogen qazlarının və ağır metalların vurduğu zərərləri kompensasiya etmək isə olduqca çətindir. Zəhərli qazlar ürək xəstəliyi və insult kimi riskləri də əhəmiyyətli dərəcədə artırır.

### *Təhlükədən necə qorunaq?*

Nəqliyyat vasitələrinin havaya buraxdığı zəhərli qazların təsirindən qorunmağın yollarından danışan M.Safali bildirib ki, köhnəlmiş nəqliyyat vasitələrinin istifadəsinə son qoyulması lazım olan əsas tənzimləmələrdən biridir. Çünki avtomobil köhnəldikcə onun işlənmiş qazlarla birlikdə buraxdığı zəhərli qazın miqdarı artır. Bundan əlavə, avtomobillərdə filtrasiya sistemlərinin istifadəsi də problemin həllinə töhfə verə bilər.

Elektrik və hibrid (elektrik və yanacaqla işləyən) avtomobillərinin geniş yayılması isə bu problemi demək olar ki, tamamilə həll edə bilər. İşlənmiş qazı buraxmayan və ya çox az miqdarda buraxan bu avtomobillər zəhər və ölümlə nəfəs almağımıza mane olacaq əsas vasitələrdir.

**Resept**

## Avtomobildə ön, gəmidə orta, qatarda isə…



Maşınla yol gedərkən ürəkbulanma, başgicəllənmə baş verməsin deyə dərmanlardan çox istifadə olunur. Lakin bu, bir çarə olsa da, təsiri keçən kimi eyni sıxıntılar bir daha təkrarlanır. Halbuki çox sadə olan bir neçə üsula əməl etsəniz, yol səyahətiniz kabusa dönməz.

1. Yola çıxmazdan əvvəl yüngül və yağsız yeməklər yeyin. Ac qalmayın. Ac qalmaq mədə bulantısına səbəb olur
2. Siqaret, qəhvə və duzlu yeməklərdən uzaq durun
3. Pəncərəni tez-tez açıb maşının içərisinin havasını dəyişin
4. Başınızı tez-tez hərəkət etdirməyin. Mümkünsə, stabil bir nöqtəyə baxın
5. Yolda kitab oxumayın və gözlərinizlə nələrisə təqib etməyin
6. Ümumiyyətlə, avtomobildə səyahət edirsinizsə, ön, gəmidə orta, qatarda isə gediş istiqamətində bir oturacağı seçin.

**Yaşam**

## Ömrünüzü uzadın

**Ətraf mühit və idman haqqında artan məlumatlılıq sayəsində velosiped sürmək məşq və nəqliyyatın məşhur formasına çevrilib. Ekoloji cəhətdən də təmiz bir fəaliyyət olan velosiped sürmək eyni zamanda sağlamlığa inanılmaz müsbət təsir göstərir.**



Velosiped sürmək ürəyin, nəbzin yaxşı işləməsinə kömək edir və infarkt riskini 50 faiz azaldır. Alimlər gündə sadəcə 10 dəqiqə velosiped sürərək daha sağlam bir ürəyə sahib olmağın mümkünlüyünü bildirirlər.

Danimarkalı tədqiqatçıların araşdırması isə velosiped sürməyin ölüm nisbətini 40 faizə qədər azaltdığını ortaya çıxarıb. Belə ki, 15 ildən çox davam edən tədqiqatda on minlərlə insan iştirak edib və araşdırma zamanı velosiped sürməyi gündəlik vərdiş halına gətirən insanların fiziki məşqlə həyat müddəti arasında güclü əlaqə aşkar edilib. Məlum olub ki, velosiped sürmək ölüm riskini azaltmaqla yanaşı, ömrü də uzadır.

Bu faydalı fəaliyyət siqareti tərgidənlər üçün ağciyərin tez bir zamanda təmizlənməsinə kömək edir. Həftədə ən azı 2 dəfə və 30 dəqiqə velosiped sürmək müsbət nəticə verir.

Velosiped sürmək arıqlamaq üçün də ideal yoldur. Gündə maksimum 10 dəqiqə velosiped sürənlər sürməyənlərə nisbətən daha arıq olurlar. Velosiped sürərkən bütün bədən əzələləri fəaliyyətə keçir. Beləliklə, orqanizmdəki artıq yağlar əriyir. 1 saat velosiped sürərək 500 kalori xərcləmək mümkündür. Halbuki qaçış da daxil olmaqla, digər idman növlərində saatda sadəcə 100-200 kalori itirə bilərsiniz. Lakin velosiped həddən çox sürətli tempdə sürülməməlidir.

Mütəxəssislər bildirirlər ki, velosiped sürmək insanın əhvalına da yaxşı təsir edir. Bu zaman orqanizmdə endorfin, dopamin, serotonin hormonları istehsal olunur ki, bunlar da özünüzü daha xoşbəxt və enerjili hiss etməyinizə gətirib çıxarır. İngiltərədə aparılan araşdırma velosipeddən istifadə edən işçilərin təxminən 90 faizinin iş yerində başqalarına nisbətən daha aktiv davrandığını üzə çıxarıblar.

Aparılan başqa bir araşdırma işə velosipedlə gedən insanların maşınla, piyada və ya ictimai nəqliyyatdan istifadə edərək gedən insanlardan daha xoşbəxt olduğunu ortaya qoyub. 800-dən çox iştirakçı üzərində aparılan araşdırma ən bədbəxt qrupun yalnız maşınla işə gedənlər olmasını göstərib.

Yuxuya getməkdə və ya səhərlər oyanmaqda çətinlik çəkirsinizsə, velosiped sürərək bu problemləri də aradan qaldıra bilərsiniz. Stanford Universitetinin tədqiqatçılarının apardıqları araşdırmalar gündə 30 dəqiqə velosiped sürənlərin yuxu rejiminin qaydaya düşdüyünü göstərib.

**Diqqət**

## Dalğalara yox, üfüqə baxın

**Bəzi insanlar dənizdə səyahət edərkən dəniz tutması deyilən balans problemi ilə qarşılaşır. Dəniz tutması daxili qulaqdan, gözdən və bədənin dərin toxumalarından gələn koordinasiya edilməmiş impulslar nəticəsində yaranan bir vəziyyətdir. Hərəkət xəstəliyi olaraq da bilinən dəniz tutması insanın tarazlığını itirməsinə səbəb olur. Dəniz tutmasının simptomlarına ürəkbulanma, başgicəllənmə və qusma daxildir. Bunun xaricində panik, narahatlıq, tərləmə kimi problemlər də görünə bilər. Bəs dəniz tutması necə keçir və onun qarşısını necə almaq olar?**



Mütəxəssislər bildirirlər ki, zəncəfil dəniz xəstəliyinə yaxşı təsir edən qidalardandır. Az miqdarda zəncəfil kökünü çeynəmək ürəkbulanmanı aradan qaldırmağa kömək edir. Zəncəfil kökü yerinə zəncəfil həbləri də təsirli üsullardan biridir.

Dəniz xəstəliyinə qarşı çoxlu su içmək, həmçinin günəşdən və istidən kənarda oturmaq məsləht görülür. Çoxlu su içərək mədənizi rahatlaşdıra bilərsiniz. Eyni zamanda dənizdə səfərə çıxmazdan əvvəl çox yemək də probem yaradır. Yediyiniz qidaların yüngül və yağsız olmasına diqqət edin. Həddindən artıq yağlı, turş və spirtli qidalar dəniz tutmasına daha çox yol açır.

Həmçinin qayıqda və ya gəmidə olarkən kitab oxumaq, planşetə və ya telefona baxmaq kimi fəaliyyətlərdən çəkinmək lazımdır.

Dəniz səyahəti zamanı gəminin kabinəsində və arxa tərəfində oturmayın. Gəmidə, qayıqda orta oturacaqda və səyahət istiqamətində oturmaq dəniz tutması riskini azaldır. Çox hərəkət etməməyə çalışın. Eyni zamanda dalğalara baxmayın, nəzərinizi üfüqə yönəldin.

Səyahət etməzdən əvvəl həkim tərəfindən təsdiqlənmiş dərmanlardan istifadə edin.

**Vacib qeyd:** Dəniz tutması keçirən insanların balansında bəzi problemlər ola bilər. Odur ki, dəniz xəstəliyindən əziyyət çəkən insanlar xilasedici jilet geyinməlidirlər.

**Problem**

## Təhlükəsiz uçuş

**Hava nəqliyyatı rahat olmaqla yanaşı, sağlamlıqla bağlı bəzi problemlərə də səbəb ola bilər. Xüsusilə də təyyarənin qalxması və enməsi zamanı qulaqlarda hiss edilən ağrı bəzən səfər zamanı, bəzən səfərdən sonra şikayətlərin davam etməsinə yol aça bilər. Türkiyəli qulaq-burun-boğaz xəstəlikləri üzrə mütəxəssis Kemal Demir təyyarə səfərləri əsnasında tətbiq ediləcək bir neçə kiçik üsulla daha rahat şəkildə səyahət edilə biləcəyi barədə məlumat verib.**



Gündəlik həyatda hiss edilən açıq hava təzyiqi ilə hündürlüyə qalxdıqda hiss edilən təzyiq arasında böyük fərq var. Təyyarə səfərlərində yüksək nöqtələrə olduqca sürətli bir qalxma gerçəkləşdiyi üçün bədən bu təzyiq fərqinə uyğunlaşmaqda çətinlik çəkə bilər. Yaşanan təzyiq fərqi bədənin fərqli bölgələrində hiss edilməklə yanaşı, ən bariz şəkildə qulaqlarda ortaya çıxır. Orta qulaq tunellə burun boşluğuna açılır və qulaq pərdəsinin xarici tərəfindəki təzyiqlə daxilindəki təzyiqi tarazlaşdırmağa çalışır. Təyyarə səyahətlərində əsasən qulaq daxilindəki təzyiq aşağı olur və qulaq pərdəsi içəriyə doğru paraşüt kimi çökə bilir. Qulaq pərdəsindəki itələnmə-çəkilmə artıq olduğu zaman tıxanıqlıq hissi ilə yanaşı, ağrı da hiss edilə bilir.

Qrip, soyuqdəymə, sinusit, tənəffüs yolu infeksiyaları kimi səbəblərdən burun tıxanıqdırsa, təzyiq və ağrı daha çox hiss edilir. Qulaqda hiss edilən ağrı və təzyiq burnun lazımi qaydada funksiyasını yerinə yetirə bilməməsindən qaynaqlanır. Burun düzgün nəfəs ala bilmədiyi hallarda burun və orta qulaq boşluğuna yetərli hava daxil ola bilmir, hava azlığı səbəbilə təzyiq dəyişikliyinə uyğunlaşmaq daha gec baş verir.

Qulaq-burun-boğaz xəstəliklərinə meyilli olan insanların təyyarə səyahətlərində daha diqqətli olmaları məsləhət görülür. Səyahətə çıxılacaq günlər ərzində burun tıxanıqlığı, yuxarı tənəffüs yolları infeksiyaları, səs qısıqlığı, boğaz ağrısı kimi şikayətləri olan insanların həkimə müraciət etməsi, lazım gələrsə, səyahətini təxirə salması faydalı olar.

Orta qulaq sisteminə hava axınını təmin edən üzvlər udqunma hərəkəti ilə qidalanırlar. Xüsusilə də qalxma və enmə əsnasında kiçik udumlarla su və ya ilıq maye qəbul etmək udqunmaq hərəkətini təmin edər.

Ağzın və burnun qapadılıb qulaqlara hava təzyiqi göndərilməsi kimi bilinən "Valsalva manevri"ndən son çarə kimi istifadə olunur. Bu hərəkəti düzgün edə bilmək böyük əhəmiyyət kəsb edir. Yanlış edilərsə, arzu olunmayan nəticələrə gətirib çıxara bilər.

Təyyarə səyahəti bitdikdən sonra hiss edilən ağrılar əsasən bir neçə saat ərzində başa çatır. 10-12 saat ərzində keçməyən ağrıları gözardı etməmək lazımdır. Bu kimi hallarda burun-qulaq-boğaz həkiminə müraciət edilməsi tövsiyə olunur. Təyyarə səyahətlərində meydana gələn tıxanıqlıqlar və ağrılar tez-tez olmamaqla yanaşı, daimi narahatlıqlara da səbəb ola bilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# “Azercell”in “Nizami ili”nə töhfəsi Mədəniyyət Nazirliyi tərəfindən yüksək qiymətləndirildi

**Ölkənin lider mobil operatoru “Azercell Telekom” xalqımızın mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi sahəsində müxtəlif uğurlu layihələr həyata keçirib.**




Ötən il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkədə “Nizami ili”nin elan olunması ilə əlaqədar şirkətin həyata keçirdiyi innovativ layihə də diqqətsiz qalmadı. Belə ki, Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev “Azercell”in prezidenti Zərinə Zeynalova ilə görüş keçirərək 2021-ci il ərzində dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığına xüsusi yanaşmasına görə şirkətin prezidentinə təşəkkürünü bildirdi.

Qeyd edək ki, 2021-ci il ərzində “Azercell”in dəstəyi ilə Nizami Gəncəvinin 100-dən çox seçilmiş fəlsəfi və lirik məzmunlu, müxtəlif ölçülü əsərlərindən parçalar audiokitab formatında tərtib edilib. Şeirlər Azərbaycan, rus, ingilis, fransız və türk dillərində qədim simli musiqi alətlərinin müşayiəti altında səsləndirilib. Orijinal fon musiqiləri ilə təqdim olunan audiomateriallar “Azercell”in eksklüziv şəkildə təqdim etdiyi beynəlxalq “Bookmate” əlavəsinə yüklənilib. Rəqəmsal xidmətləri hər kəs üçün əlçatan etməyi hədəfləyən “Azercell” bu layihəsi ilə həm yerli, həm də beynəlxalq auditoriya tərəfindən mədəni irsimizin daha rahat şəkildə mənimsənilməsinə şərait yaratdı.

Təqdimat mərasimində Elnur Əliyev diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ilin ölkəmizdə “Nizami ili” elan edilməsi dövlətimizin Azərbaycan xalqının mədəniyyətinə, milli kimliyinə sadiqliyinin sübutudur. Daha sonra Elnur Əliyev “Azercell” şirkətinin prezidenti Zərinə Zeynalovaya “Nizami Gəncəvi-880” xatirə nişanını təqdim etdi.

# “Buta Airways” fevral ayında Mineralnıye Vodı şəhərinə uçuşları bərpa edir

**“Buta Airways” aviaşirkətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, 28 yanvar 2022-ci il tarixdən etibarən aviaşirkət Bakıdan Mineralnıye Vodı şəhərinə birbaşa reysləri bərpa edir. Aviadaşıyıcı fevralın 6-dan uçuşları həyata keçirəcək.**



Bakı-Mineralnıye Vodı-Bakı marşrutu üzrə uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və bazar günləri yerinə yetiriləcək.

Qeyd edək ki, bundan əvvəl, 2021-ci ilin may ayının sonundan 2022-ci ilin yanvar ayına qədər Mineralnıye Vodı şəhərinə uçuşlar “Azərbaycan Hava Yolları” aviaşirkəti tərəfindən həyata keçirilirdi.

Həmin uçuşlara biletləri buta-airways.az rəsmi saytından (“Büdcə”, “Standart” və “Super” tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız “Super” tarifi üzrə) əldə edə bilərsiniz.

Biletlərin dəyəri 29 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalında xidmət göstərilir.

Daşımaya yalnız mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Rusiyaya səfər etməyi planlaşdıran Azərbaycan vətəndaşlarının bu ölkənin ərazisinə giriş hüququ olmalıdır. Pandemiya dövründə RF ərazisinə giriş qaydaları aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.butaairways.az/az/covid/russia.**

Azərbaycanda COVID-19 üçün test verilə bilən klinikaların siyahısı aviaşirkətin saytında qeyd edilmişdir: **https://www.butaairways.az/az/covid/clinics.**

Rusiya şəhərlərindən Azərbaycana uçuş zamanı COVID-19 testindən keçmək zəruridir. PCR-testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir. COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

## ◆Dünya gündəmi

# Terror, üsyan, qətllər, kütləvi həbslər...

## Latın Amerikasında dövlətlər nə qədər güc tətbiq etsələr də, narkomafiya təsir sahələrini bölüşdürməkdə davam edir




**Narkotik tacirləri Andlardan, Braziliyanın və Argentinanın Atlantik limanlarına narkotik maddələrin çatdırılmasının yeni üsullarını öyrənirlər. Aviasiya narkomarşrutlarında Boliviya və Paraqvay mühüm aralıq məntəqələrə çevriliblər və oradan hər həftə bu cür marşrutların aşkar edilməsi barədə məlumatlar daxil olur.**

Kolumbiyadakı “FARC” və “ELN” qruplaşmalarının döyüşçüləri narkotiklərin xaricə çatdırılması marşrutlarını açmaq üçün Venesuela ilə sərhəddə müharibə aparırlar.

Braziliyada polis narkotik kartellərilə mübarizə aparmaq üçün yoxlanılmış taktikaya əl ataraq, hərbi bölmələri Rio-de-Janeyronun rayonlarına yeridib. Ekvadorda isə Meksika narkokartellərinin ölkəyə daxil olması ilə əlaqədar qətllərin sayı artır.

### *Argentina*

Yanvarın 23-də Argentina polisi Paraqvaydan gəlmiş yük maşınında olan 1,8 ton marixuana müsadirə edib. Bu, Paraqvayın malın Avropaya çatdırılması üçün Atlantik limanlarına yaxın daşındığı ən mühüm aralıq narkohabına çevrilməsinin növbəti sübutudur.

Yanvarın 19-da polis əməkdaşları Buenos-Ayres əyalətinin Perqamino şəhərində 130 kiloqramdan çox kokain müsadirə ediblər. Narkotik Paraqvaydan uçan təyyarədən yerə atılıb. Polis və təhqiqatçılar bu yükün Buenos-Ayresin Baho Flores rayonundakı narkobandalar üçün göndərildiyini düşünürlər.

### *Braziliya*

Yanvarın 19-dan etibarən Braziliya polisləri kriminal Jakarezinyu məhəlləsi də daxil olmaqla, Rio-de-Janeyro favelalarını işğal ediblər. 2021-ci ilin yayında orada polis əməliyyatı nəticəsində 28 nəfər qətlə yetirilmişdi. Lakin bu dəfə nə atışma, nə qətllər, nə də ki nümayişlər olub.

“Vahid şəhər” adlandırılan “vətəndaş hakimiyyətinin qaytarılması” əməliyyatında 1300 polis, həmçinin zirehli texnika, dronlar və helikopterlər iştirak edir. Narkomafiyanın Jakarezinyu forpostundan başqa, bu qüvvələr ultrasağçı könüllülərin idarə etdikləri Muzema favelasına da daxil olublar. Könüllülər narkomafiyaya qarşı olsa da, tez-tez eyni cinayətləri törədirlər. Əməliyyat həmçinin Bandeyra-2, Morar Karioka rayonlarına və Manginyu favelasına yayılıb. Ştatın qubernatoru Klaudiu Kastru bildirib ki, onun hökuməti bir neçə ay favelalarda sosial dəyişikliklər proqramı işləyib hazırlayıbdı. Və polislərin daxil edilməsi belə dəyişikliklərin başlanğıcıdır.

Güc strukturlarının bu rayonlardan nə vaxt çıxarılacağı bilinmir. Lakin məlumdur ki, artıq yanvarın 20-də polis qüvvələrinin sayı 1300-dən 350-yə endirilib.

### *Boliviya*

Boliviyanın narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə xüsusi təyinatlıları (Felcn) Abel - İturralde əyalətində aşkar edilmiş üç gizli uçuş-enmə zolağını məhv ediblər. “Cessna” təyyarələrinin enməsi üçün infrastrukturdan Peru - Boliviya - Braziliya marşrutu üzrə narkotik maddələrin daşınmasında istifadə edilib.

### *Qvatemala*

Bu günlərdə Qvatemalanın təhlükəsizlik qüvvələri narkotik alverçisi Vilfido Adan Errera Vilyatoronu tutub. ABŞ-da onun ekstradisiyasını tələb edirlər. Vilyatoronun həbsi Meksika ilə sərhəddə yerləşən Ueuetenanqo Departamentində baş verib.

Qvatemala Konqresinin keçmiş vitse-prezidenti deputat Sofiya Ernandes qardaşı Henri Ernandes Erreraрın Uetenanqoda yanvarın 16-da baş verən qətlini araşdırmağı xahiş edib. Ernandeslər ailəsi narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan qurumlarla əlaqədə ittiham olunur. Deputat “Milli dəyişikliklər İttifaqı” Partiyasından (UCN) Konqresə seçilib. Partiyanın təsisçisi və prezidentliyə sabiq namizəd Mario Estrada hazırda “çirkli pulların yuyulmasına görə” ABŞ həbsxanasında cəza çəkir.

### *Honduras*

Yanvarın 20-də Olançito şəhərində narkotik alverçisi İlvis Ömər Errera öz evində qətlə yetirilib. Onunla birlikdə əlaltısı Xorxe Kastilyo öldürülüb. Cinayətin səbəbləri və sifarişçiləri naməlum qalıb.

Elə həmin gün Olançoda polis təqibindən sonra narkotik alverçiləri narkotiklə dolu avtomobili yolda atıblar. Honduras polisi müsadirə edilmiş yükün həcmini açıqlamır.

### *Kolumbiya*

İspaniyada “Los Paçenka”narkoqruplaşmasının başçısı, “Pinokkio” ləqəbli Fredi Kastilyo Karrilyo həbs edilib. Karrilyo narkotik ticarətində, çoxsaylı qətl cinayətlərində, o cümlədən ictimai liderlərin ölümündə, pul qoparmaqda və digər cinayətlərdə ittiham olunur.

“Kolumbiyanın İnqilabi Silahlı Qüvvələri” nin (FARC) keçmiş döyüşçüsü Manuel Bolivar yanvarın 21-də özünün Boqotadakı restoranında bomba aşkar edib. Bundan bir gün əvvəl “Tarixi pakt” (HP) sol-mərkəzçi seçki koalisiyasının nümayəndələri restoranda toplaşıblar. Hal-hazırda Kolumbiya prezidentliyinə ən şanslı namizəd Qustavo Petro HP-nin nümayəndəsi kimi öz kampaniyasını aparır.

Bu arada Saravena şəhərində minalanmış avtomobil partladılıb. Nəticədə bir nəfər həlak olub, daha beş nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti FARC radikallarının “28-ci cəbhəsi” öz üzərinə götürüb. Cəbhəçilər rəqabət apardıqları “Milli azadlıq ordusu” (ELN) silahlı qruplaşmasına amansız müharibə elan ediblər.

Hökumət və yerli media hesab edirlər ki, söhbət Kolumbiyanın Şimali Santander və Arauka departamentlərində, habelə Venesuelanın Apure və Taçira ştatlarında narkotik bazarının qəti bir şəkildə yenidən bölüşdürülməsindən gedir. Yanvarın 23-də birgə əməliyyat zamanı polis və ordu Sardinatda (Şimali Santander) 2,5 ton kokain müsadirə ediblər. Bütün mallar ELN-ə məxsus olan narkotik laboratoriyasında qablaşdırılıb. Həmin gün Narinyo departamentinin Los-Andes-Sotomayor şəhərində polis ELN-in üç döyüşçüsünü saxlayıb. Onlarda odlu silah və 15 kq kokain olub. Silviyada (Kauka) isə polis daha üç nəfəri saxlayıb. Saxlanılanlar narkotik ticarəti, qəsbkarlıq, qətllər və döyülmələrlə bağlı mühakimə olunacaq.

### *Meksika*

2018-2021-ci illərdə Andres Manuel Lopes Obrador hökuməti “El Mayyo” ləqəbli narkotik alverçisi, Sinaloa kartelinin üzvü İsmael Sambado Qarsiya ilə əlaqəli “Estancia Infantil Nino Feliz SC” firmasına milyon dollardan artıq vəsait ödəyib. Hazırkı prezidentdən başqa onun sələfləri Vicente Foks, Enriko Penya Nyeto və Felipe Kalderon bu şirkətin hesablarına 2,5 milyon dollar köçürüblər. Ödənişlər Meksika sosial təminat İnstitutu (IMSS) vasitəsilə həyata keçirilib və Sinaloa əyalətində uşaqların müalicəsi üçün nəzərdə tutulub.

Ötən həftə Monterrey şəhərində Meksikanın güc strukturları əməkdaşları Nuevo-Leon ştatındakı Sinaloa kartelinin rəhbəri - “Komandante Kano” ləqəbli Alan Hervey Xuares Kastilyonu həbs ediblər. Əvvəlcə onu tanımayıblar, çünki zahiri görünüşünü çox dəyişib. Kartelin döyüşçüləri öz başçılarını azad etməyə çalışıblar. Apodaka qəsəbəsində atışmada iki quldur həlak olub, daha üç nəfər saxlanılıb.

Bundan sonra Meksika polisi və ordusu Xalisko ştatının Puerto-Valyarta liman şəhərində birgə xüsusi əməliyyat keçirib. Nəticədə “Xaliskonun yeni nəsli”(CJNG) kartelinin “Don Karlos” ləqəbli silah tədarükçüsü həbs olunub.

Buna cavab olaraq, CJNG Ohuelos, Enkarnasyon-de-Dias və Teokaltiçe şəhərlərinin polislərinə təhdidli mesajlar göndərib. Həmin rayonlarda CJNG və Sinaloa kartelləri arasında mübarizə gedir. “Xaliskonun yeni nəsli” polis məmurlarını Sinaloa kartelinə işləməkdə günahlandırıb və onları ölümlə hədələyib.

Bu arada Moreliyada (Miçoakan ştatı) Meksika Hərbi Donanmasının leytenantının öldürülməsində iştirak edən dörd nəfər həbs olunub. Müstəntiqlər hesab edirlər ki, onların hamısı Miçoakanda fəaliyyət göstərən “Templarios” kartelinin üzvləridir.

Uzun müddət hesab olunurdu ki, kartel kəndli özünümüdafiə dəstələri tərəfindən məhv edilib. Lakin son iki ildə həmin qruplaşmanın bərpası haqqında məlumatlar gəlməyə başlayıb. Bu arada Miçoakan ştatında CJGN karteli bütün qeyri-leqal fəaliyyəti tədricən öz nəzarətinə alır.

### *Paraqvay*

Paraqvay polisi Amambay Departamentində braziliyalı narkotik alverçisi, “Pika-Pau” ləqəbli Marsio Vinisius da Payşao Vieyranı həbs edib. O, Minas-Jerays ştatında “Birinci paytaxt komandası” (PCC) narkokartelinin rəhbəri olub. Onunla birlikdə PCC-nin daha iki döyüşçüsü ələ keçib.

Həbs olunanlar yalnız narkotik maddələr alveri və qəsbkarlıq ilə məşğul olmurdu. “Pik-Paunun” əlindəki döymələr onun polisləri öldürdüyünü təsdiq edib.

Bu, Paraqvayda braziliyalı narkotik alverçilərinin həbs edildiyi ilk hal deyil. Polis qeyd edir ki, ölkə çoxdan Braziliyaya narkotik maddələrin daşındığı məntəqəyə çevrilib. 2021-ci ilin noyabr ayında PCC-dən olan braziliyalı həmkarları üçün narkotik maddələr tədarük edən paraqvaylı beş narkotacir də həbs edilib.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə müraciət etmək istəyən vətəndaşların nəzərinə!

**COVID-19 virusunun yayılmasının qarşısını almaq, həmçinin vətəndaş məmnuniyyəti və operativ xidmətin təmin edilməsi məqsədi ilə cari ilin 1 fevral tarixindən etibarən vətəndaşların əyani qəbulu üçün qeydiyyat yalnız onlayn rejimdə həyata keçiriləcək.**

Qəbula yazılmaq üçün www.dtsera.az linki vasitəsilə qeydiyyatdan keçərək və ya +994 99 819 19 23 WhatsApp nömrəsinə fərdi məlumatlarınızı göndərərək onlayn növbə ala bilərsiniz.





# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

## *qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək

Azərbaycanda yanvarın 30-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 0-2°, gündüz 8-11° isti, Bakıda gecə 0-2°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, yanvarın 30-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim gedişi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, yüksək dağlıq ərazilərdə 15°-dək şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10° şaxta, gündüz 3-8° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, bəzi yerlərdə 12°-dək şaxta, gündüz 0-5° isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, dağlarda 10-14° şaxta, gündüz 0-5° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək . Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 4° şaxtadan 1°-dək, gündüz 8-13° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 13-17°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-9° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5047
Sifariş 220
Qiyməti 40 qəpik